Xalqın qəzeti!

# Xalq qəzeti

№ 262 (30378) 1 dekabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Azərbaycan qlobal ekoloji problemlərin həllinə töhfəsini artırır

### Bərpaolunan enerji sahəsində ölkəmizin Birləşmiş Əmirliklərlə əməkdaşlığı genişlənir

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.**



Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-ə ev sahibliyi etməsi və bu tədbirin yüksək səviyyədə təşkil olunması münasibətilə Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olundu.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirildi. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulandı.

*(ardı 2-ci səhifədə)*

## Erməni ictimai rəyi və sülhün ağır şərtləri

### Alen Simonyanın bomba təsiri yaradan açıqlaması hansı müzakirələrə səbəb olub?

**Məlum olduğu kimi, Ermənistan parlamentinin sədri Alen Simonyan yaxın vaxtlarda Azərbaycanla sülh müqaviləsinin imzalanmasının mümkünlüyünü açıqlayıb. Məsələ erməni ictimai rəyində geniş müzakirə olunmaqdadır. Həm də ona görə müzakirə olunmaqdadır ki, Simonyanın fikirləri sənəddə Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi ilə bağlı heç bir müddəanın yer almayacağını söyləməyə əsas verməkdədir.**



Halbuki, baş nazir Nikol Paşinyan xüsusən də bu il oktyabrın 5-də keçirilmiş və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakdan imtina etdiyi Qranada sammiti sonrası sözügedən məqamı, az qala, həyati əhəmiyyətli məsələ kimi qabardırdı. O, ölkəsinin ictimai televiziyasına müsahibəsində bildirmişdi ki, Qarabağ erməniləri üçün hüquq və təhlükəsizliyi özündə ehtiva edəcək sülh prinsiplərinin korrektəsi mümkünsüzdür. Elə məhz buna görə də Simonyanın dedikləri Ermənistan cəmiyyətində, bir növ, bomba effekti yaradıb.

Erməni siyasilər bildirirlər ki, ölkənin hakim komandası uzun müddətdir cəmiyyətin Qarabağ müstəvisindəki vəziyyətlə barışması üçün zəmin hazırlayır. Onlar, ümumən, Qarabağ mövzusunun Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş sazişi" partiyasının nümayəndələri üçün hansısa "qırmızı xətt" əhəmiyyəti daşımadığını vurğulayaraq, haray-həşir qaldırırlar. Mövcud xüsusda "Vətəndaş sazişi"nin 2021-ci ilin növbədənkənar parlament seçkiləri öncəsi verdiyi vədləri qabardırlar. Yada salaq ki, hakim komanda vədlərində seçkilərdə qələbə qazanılacağı təqdirdə, Hadrutu və Şuşanı azad etməkdən də dəm vurmuşdu. Və həmin A.Simonyan seçki kampaniyası zamanı düzənlənmiş mitinqlərdə vəcdə gələrək qışqırmışdı ki, Qarabağın gələcəyi var. Ona görə də Ermənistan müxalifləri belə bir sual verməkdə haqlıdırlar: Bir şeyi ki, edə bilməyəcəkdiniz, nə üçün boş-boş danışırdınız?

*(ardı 3-cü səhifədə)*

## Avropa Parlamentinin "hesabatları", yaxud ermənipərəstliyin 2023-cü il xronikası



**Avropa Parlamentinin iki qurumu ermənipərəst və anti-Azərbaycan mahiyyət daşıyan hesabat hazırlayıb. Bu qurumlardan biri Xarici əlaqələr komitəsi, digəri Nazirlər Şurasıdır. Birincinin hesabatı ümumi təhlükəsizlik və müdafiə məsələləri, ikincininki isə xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi ilə bağlıdır.**

Başlayaq, AP-nin Xarici əlaqələr komitəsinin illik hesabatından. Daha doğrusu, Azərbaycanın Qarabağda bu il sentyabrın 19-da həyata keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərinin işğalçılıq əməli olaraq qiymətləndirilməsindən. Əlbəttə, son dövrlər bu sayaq yarıtmaz fikirlərin əksini tapdığı hesabatları, məqalələri çox görmüşük. Ona görə ilk baxışdan AP kimi həmişə ölkəmizə qarşı qərəzli münasibəti ilə seçilmiş "pensionerlər klubu"nun qəbul etdiyi sənədlərdə təəccüblənəcək heç nə yoxdur. Amma nəzərə alaq ki, belə yanaşmalar, ümumən, dünyada Azərbaycan əleyhinə mənfi rəy formalaşdırmağa söykənib. Bu səbəbdən onların üzərində dayanmağa ehtiyac duyuruq. Belə kağız parçalarına nəzər salmağa ehtiyac həm də ona görə var ki, bu "hesabatlar" mahiyyətcə erməni avantürizmi üçün illüziya yaradır və onun təsiri yaşadığımız Cənubi Qafqaz regionunda, daha doğrusu, Azərbaycan-Ermənistan şərti sərhədində dərhal hiss olunur.

*(ardı 3-cü səhifədə)*



## Sərhəddə görüş: irəliləyiş, yoxsa yerində qaçış?

**Noyabrın 30-da Azərbaycan–Ermənistan şərti sərhədində iki ölkənin baş nazirlərinin müavinləri – Şahin Mustafayev və Mher Qriqoryanın rəhbərlik etdikləri dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların iclası keçirilib. Hər iki ölkədə diqqətlə izlənilən görüş şərti sərhədin Qazax rayonu və Tavuş vilayəti hissəsində baş tutub. Görüş 3 saat davam edib.**

Qeyd edək ki, budəfəki görüş sayca beşinci idi. İndiyədək keçirilən dörd görüşdən ikisi sərhəddə (Arazdəyən kəndi və Qazax rayonu), ikisi isə xaricdə (Moskva və Brüssel) düzənlənmişdi. Görüşlə bağlı hər iki ölkənin xarici işlər nazirlikləri açıqlama yayıb. Azərbaycan XİN-in açıqlamasında bildirilib ki, tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər: "Tərəflər Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar. Tərəflər Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşib, komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər. Həmçinin, tərəflər komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılaşıblar".

*(ardı 4-cü səhifədə)*

## Sərsəng Su Anbarının tilsimi qırılıb



Səhifə ⇨ 8

## Murovdağdan Kəlbəcərə 14 kilometr tunel çəkilib

Səhifə ⇨ 5



## Vergi islahatları iqtisadi yüksəlişə meydan açıb

Səhifə ⇨ 7



## Minsk vaxtı ilə ...

Səhifə ⇨ 8

# Bərpaolunan enerji sahəsində ölkəmizin Birləşmiş Əmirliklərlə əməkdaşlığı genişlənir




(əvvəli 1-ci səhifədə)

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edildi, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirildi.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti – ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulandı.

Birləşmiş Ərəb Əmirliklərinin “AD Ports Group” şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edildi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Xarici işlər nazirinin görüşləri



**Xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 30-cu iclasında iştirakı çərçivəsində noyabrın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Pia Kauma ilə görüşüb.**

Görüşdə ATƏT Parlament Assambleyası çərçivəsində Azərbaycanla əməkdaşlıq perspektivləri və gündəlikdə duran əsas məsələlər, bölgədəki cari vəziyyət, Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə ATƏT Parlament Assambleyasının mümkün töhfələri ətrafında müzakirələr aparılıb.

Görüşdə nazir Ceyhun Bayramov bu gün bölgədə yaranmış yeni reallıqlardan söz açıb, Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinə gətirən səbəblər barədə məlumat verib.

Görüşdə, həmçinin sülh sazişinin imzalanması ilə bağlı Azərbaycan və Ermənistan arasında normallaşmaya dair ölkəmizin mövqeyi vurğulanıb, Ermənistanın bu cür səylərə zərbə vuran addımları və hərbi-siyasi təxribatları diqqətə çatdırılıb. Ermənistanın törətdiyi mina təhdidləri barədə geniş məlumat verilib.

ATƏT PA-nın iki ölkənin nümayəndə heyətləri arasında etimadın qurulması baxımından səmərəli platforma ola biləcəyi bildirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Noyabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 30-cu iclasında iştirakı çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.

Nazir Ceyhun Bayramov Azərbaycan və Macarıstan arasında ikitərəfli, o cümlədən çoxtərəfli münasibətlərin inkişaf səviyyəsinin məmnunluq doğurduğunu, əməkdaşlıq gündəliyinin genişləndirilməsi və perspektivlərinin müzakirəsində qarşılıqlı təmaslar və səfərlərin əhəmiyyətini vurğulayıb.

Macarıstanın xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinə daimi dəstəyi minnətdarlıqla xatırlanıb.

Qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma və sülh gündəliyinin irəlilədilməsi istiqamətində göstərilən səylər barədə ətraflı məlumatlandırılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Xarici işlər naziri Ceyhun Bayramov dünən İsveç Krallığının xarici işlər naziri Tobias Billström ilə də görüşüb.

Görüş zamanı Azərbaycan ilə İsveç arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq əlaqələri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Azərbaycan-İsveç ikitərəfli əməkdaşlıq gündəliyinin inkişafına impuls verilməsi baxımından yüksək səviyyəli qarşılıqlı səfərlərin və siyasi məsləhətləşmələrin təşkilinin əhəmiyyəti və rolu qeyd olunub.

Ceyhun Bayramov həmkarını Azərbaycan tərəfindən 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirlərini şərtləndirən amillər barədə məlumatlandırıb. Ceyhun Bayramov görüşdə, həmçinin mövcud regional vəziyyət və Azərbaycanın bölgədə sülh və sabitliyin təmin edilməsi istiqamətində planları barədə danışıb. O bildirib ki, Ermənistan ilə münasibətlərin normallaşdırılması üzrə Azərbaycanın davamlı sülh gündəliyini təşviq etməsinə baxmayaraq, Ermənistan tərəfindən ölkəmizə qarşı ardıcıl şəkildə aparılan qarayaxma kampaniyası sülhə xidmət etmir.

***

Xarici işlər naziri Ceyhun Bayramov həmin gün İsveçrə Konfederasiyasının federal xarici işlər naziri İqnasio Kassis ilə görüşüb.

Nazir həmkarını postmünaqişə dövründə reallıqlar, Azərbaycan və Ermənistan arasında normallaşma və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinin perspektivləri barədə ətraflı məlumatlandırıb.

Vurğulanıb ki, Azərbaycan bölgədə sülhün alternativinin olmadığına, Ermənistan tərəfinin təxribatçı addımlardan çəkinəcəyinə ümidvardır.

Görüşdə, həmçinin iki ölkə arasında gündəlikdə duran digər aktual və qarşılıqlı maraq kəsb edən regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Ədliyyə naziri Belarusda

**Belarusun ədliyyə nazirinin dəvəti ilə Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov nümayəndə heyəti ilə Minskdə səfərdə olub.**



Tədbirdə ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı, bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun xüsusi rolu vurğulanıb.

Belaruslu nazir Sergey Xomenko ədliyyə sistemində yeni çağırışlara uyğun aparılan islahatlar barədə məlumat verib.

Nazir F.Məmmədov ədliyyə sahəsində yeniliklər, o cümlədən infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər, rəqəmsal innovasiyalar tətbiq olunmaqla məsafədən əhaliyə göstərilən elektron və mobil xidmətlər barədə qarşı tərəfi məlumatlandırıb.

Tədbirdə Azərbaycan və Belarus Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq Proqramı imzalanıb.

Səfər zamanı, həmçinin Məhkəmə Ekspertizaları Dövlət Komitəsinin rəhbərliyi ilə görüş keçirilərək əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılıb.

Eyni zamanda, nazir F.Məmmədovun Ali Məhkəmənin sədri, görkəmli hüquqşünas Valentin Sukalo ilə görüşü olub.

Səfər çərçivəsində nümayəndə heyətimiz tərəfindən Minskdə notariat, Azərbaycanın “ASAN xidmət” brendinə uyğun yaradılmış “Bir pəncərə” xidmətlərinin fəaliyyəti ilə tanış olunub.

***XQ***

# Nümayəndə heyətimiz BMT konfransında

**Dünən Birləşmiş Ərəb Əmirliklərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 28-ci Tərəflər Konfransı (COP28) öz işinə başlayıb.**

Açılışda COP28-in prezidenti, BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Simon Stiell, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin sədri Jim Skea və digərləri çıxış ediblər.

Dekabrın 12-dək davam edəcək konfransın əsas mövzuları təmiz enerjiyə keçid, iqlim maliyyələşməsi, təbiət əsaslı həllər, sosial inklüzivlik və digər məsələləri əhatə edir.

Xatırladaq ki, konfransda Azərbaycan nümayəndə heyəti də iştirak edir.

***XQ***

# Marneulidə Ümummilli liderə böyük ehtiram



**Noyabrın 30-da Gürcüstanın Marneuli şəhərindəki “Azərbaycan Evi”ndə AZƏRTAC-ın təşəbbüsü ilə Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir Gürcüstan” mövzusunda konfrans və fotosərgi təşkil edilib.**

“Azərbaycan Evi”nin direktoru Məhəbbət İmanov çıxış edərək tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, Ulu öndərin xatirəsinə həsr olunmuş konfrans və serginin təşkili təkcə Tbilisidə deyil, Marneulidə və Gürcüstanın digər bölgələrində də keçirilməsi Ulu öndərə hörmət və ehtiramın, sevginin bariz nümunəsidir.

AZƏRTAC-ın Gürcüstan üzrə xüsusi müxbiri Xətayi Əzizov çıxış edərək, Ümummilli liderin həyat və fəaliyyətindən, Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafındakı xidmətlərindən danışıb. Bildirib ki, Ulu öndər Heydər Əliyevin təkcə Azərbaycan xalqı deyil, gürcü xalqının da qarşısında danılmaz, böyük xidmətləri olub.

Sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Ramel Lətifov bildirib ki, səfirlik tərəfindən hazırlanan “Heydər Əliyev İli” tədbirlər planına əsasən Gürcüstanda da silsilə tədbirlər keçirilib. Tbilisidəki Botanika bağında "Heydər Əliyev adına nar bağı" salınıb, paytaxtda, regionlarda böyük sərgilər, konsert və digər tədbirlər təşkil olunub.

Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Maladze çıxışında Heydər Əliyevlə bağlı görüşlərini xatırladıb. Ulu öndərin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin birgə səyləri nəticəsində reallaşan enerji və nəqliyyat layihələrinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, Ulu öndər Heydər Əliyevin xatirəsi daim gürcü xalqının xatirəsində yaşayacaq.

Daha sonra Marneuli bələdiyyəsi sədrinin müavini Rövşən İskəndərov, tarixçi alim, Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov, Marneuli sakrebulunun üzvü Anar Piriyev, sabiq deputat Hidayət Hüseynov və başqaları Ulu öndər haqqında xatirələrini bölüşüb, onun gürcü xalqı qarşısındakı xidmətlərindən danışıblar.

***XQ***

# Regionların inkişafında Heydər Əliyev irsi



**Noyabrın 30-da Milli Məclisdə “Azərbaycanda yerli demokratiyanın, özünüidarəetmənin və regionların inkişafında Heydər Əliyev irsi” mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən danışıb.

Tədbirdə deputatlar Kamran Bayramov, Ziyad Səmədzadə, Naqif Həmzəyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Səbinə Xasayeva, Rauf Əliyev, İlham Məmmədov, Cavid Osmanov, Etibar Əliyev, Müşfiq Cəfərov, Arzu Nağıyev, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Fərid Əliyev, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov və Bakı şəhəri Nərimanov rayon bələdiyyəsinin sədri Təmraz Tağıyev çıxış edərək Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsi barədə fikirlərini bildiriblər, onun hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərdiyini, həmin dövrlərdə ölkə həyatının bütün sahələrinin inkişaf etdiyini deyiblər.

***XQ***

# Delimitasiya üzrə komissiyanın Əsasnaməsi hazırlanacaq

**Noyabrın 30-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın beşinci görüşü keçirilib.**

Tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi Reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar.

Eyni zamanda, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşiblər, həmçinin komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər.

Tərəflər, həmçinin Komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

***XQ***

# Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında təhlükəsiz internet

**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində, o cümlədən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında dövlət qurumlarının etibarlı idarə olunması və məlumat mübadiləsinin təşkili məqsədilə TETRA radiorabitə şəbəkəsi istifadəyə verilib.**

“Həmçinin sözügedən ərazilərdə fəaliyyət göstərən dövlət qurumları “AzStateNet” şəbəkəsi üzərindən təhlükəsiz data və internet kanalları ilə təmin olunublar”, – deyə məlumatda bildirilir.

Hazırda XRİTDX tərəfindən cari ilin ötən dövrü ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində fəaliyyət göstərən 15 dövlət qurumu “AzStateNet” şəbəkəsi üzərindən data və internet kanalları ilə təmin olunub.

# Avropa Parlamentinin "hesabatları", yaxud erməniپərəstliyin 2023-cü il xronikası

## Qurumun anti-Azərbaycan mövqeyindəki köhnə-yeni motivlərə sözardı

(əvvəli 1-ci səhifədə)

Bəli, AP-nin Xarici əlaqələr komitəsinin ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsinə dair illik hesabatında ölkəmizin "həyata keçirdiyi hücumun" nəticəsiz qalmamalı olduğu bildirilir və belə bir qənaətə gəlinir ki, Aİ atəşkəsin çoxsaylı pozuntularına görə, guya, məsuliyyət daşıyan Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq etməlidir. Sənəddə, həmçinin Aİ Azərbaycanla enerji sahəsindəki razılaşmaları dayandırmağa çağırılır.

Göründüyü kimi, ölkəmizə qarşı, ənənəvi, belə demək mümkünsə, sanksiya məntiqi işə salınır. Ancaq hazırda bu "məntiqlə" yanaşı, digər məsələ də önə çəkilir. Təsəvvür edin, AP-nin "hesabat konstruktorları" bu düşüncədədirlər ki, Azərbaycanda insan haqları ilə bağlı dramatik vəziyyət var və buna görə Aİ Bakı ilə yeni tərəfdaşlıq sazişi üzrə danışıqları dayandırmalıdır: "Aİ-nin Azərbaycanla münasibətlərinin istənilən dərinləşməsi, ölkənin insan hüquqlarının, qanunun aliliyinin, demokratiyanın və əsas azadlıqların, o cümlədən, etnik azlıqların müdafiəsində mühüm irəliləyişlərin qeydə alınması şərti ilə olmalıdır", – deyə hesabatda bildirilib.

İnsan hüquq və azadlıqlarından söz düşmüşkən, bu sahə müstəvisində manipulyasiyalar müasir dövrün acı gerçəkliklərindən biridir. Deyərdik ki, bu, hətta qatı erməniپərəstlikdən də qat-qat zərərli tendensiyadır. Ancaq, təəssüf ki, Qərb dünyası mövcud xüsusdakı oyunbazlığından qalmır. Ən pisi isə budur ki, təməl prinsipləri siyasi məqsədlərin girovuna çevirir. Diqqət yetirək: İllərdir Azərbaycana qarşı qeyd etdiyimiz ritorikadan istifadə edilir, ittihamlar yağdırılır, ancaq bunun müqabilində ölkəmizlə inkişaf dərinləşdirilir. Buradan gəlinən elementar qənaət budur ki, Qərb dünyası riyakardır. Axı, sual yaranır: Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı dözülməz durum hökm sürürdüsə, bəs nə üçün onunla əməkdaşlıq münasibətləri vüsət alırdı və yenə də vüsət almaqdadır? Sadə məntiqlə yanaşsaq, görərik ki, bəşəri dəyərlərə xəyanət yolu tutan elə Qərbin bəzi dairələrinin özləridir. İndi də xəyanətlərini erməniپərəstlik musiqisinin notlarına kökləyiblər.

Bəli, Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin hesabatındakı erməniپərəstlik özünü Aİ-nin Ermənistanda yaratdığı mülki müşahidə missiyasının təriflənməsində də göstərməkdədir. Hesabat müəlliflərinin fikrincə, guya, bu missiya regionda təhlükəsizliyin möhkəmləndirilməsinə müstəsna dəstəkdir. Söhbət Aİ-nin Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfindəki missiyadan gedir. O missiyadan ki, tərkibi pensiyada olan alman polislərindən və fransız jandarmlarından ibarətdir və onların işi-gücü sərhəd boyu ora-bura maşın sürməkdən başqa bir şey deyil. Hərdənbir də əllərindəki sınıq durbinlərlə Azərbaycana tərəf baxırlar. Bütün bunlar isə beynəlxalq rəyə nəinki Ermənistanın, habelə Cənubi Qafqazın təhlükəsizliyinin təminatı tədbiri olaraq sırınır. Necə deyərlər, köhnə hamam, köhnə tas. Sən demə, sözügedən missiyasının tərkibi, imkanları və coğrafi əhatəsi genişləndirilməli, müddəti daha beş il uzadılmalıdır. Hər şeyi başa düşdük, beş illik müddət necə müəyyənləşdirilir, anlamaq mümkünsüzdür. Üstəlik, əgər missiya təhlükəsizliyi təmin etmək üçündürsə, o zaman nəyə görə onun Azərbaycan ərazisində və Qarabağda fəaliyyət göstərməsi üçün ölkəmizə çağırış ünvanlanır? Axı, Azərbaycan öz təhlükəsizliyini qoruya bilir. Digər tərəfdən, bir sual da meydana çıxır: müşahidəçilərin Qarabağda nə işi var?



Aydındır ki, məsələ təhlükəsizlikdə deyil, Cənubi Qafqazda siyasi məqsədlər reallaşdırmaqda, Qarabağdakı erməni avantürizminin davamı üçün, başqa sözlə desək, tutacaq yerlər tapmaqdadır. Deməli, beş illik müddət təsadüfən seçilməyib. Görünür, avropalılar belə başa düşürlər ki, 2025-ci ildə rus sülhməramlıları bölgəni tərk etdikdən sonra, onların yerini Aİ-nin müşahidə missiyası tutmalıdır. Yəni, təhlükəsizlik ritorikası ilə bağlı başlıca vurğu Ermənistanın və Qarabağın təhlükəsizliyi üzərindədir və deməli, Qərb dünyası İrəvanın Qarabağ iddiası üzərində Cənubi Qafqazda möhkəmlənmək planı qurur. AP-nin Xarici Əlaqələr Komitəsinin hesabatındakı başlıca məram da elə buna "xidmətdir".

Hesabatdakı digər məqama keçid alaq. Məlumdur ki, son zamanlar dünyanın müxtəlif yerlərindən, o cümlədən, Qərb ölkələrindən Ermənistana silah-sursat axını var. Ölkənin təhlükəsizliyinin, müstəqilliyinin və suverenliyinin qorunmasında Aİ-nin dəstəyinin qeyd olunduğu sənəddə isə tərəflər, yəni Ermənistan və Aİ arasında müdafiə sahəsində daha əhatəli və genişləndirilmiş əməkdaşlıq təşviq edilir. Belə nəticəyə gəlirik ki, avroparlamentarilər İrəvanın Bakıya qarşı duruş gətirəcək qüvvəyə çevrilməsi üçün çağırış edirlər. Bu da sülh qaranquşları! Hər halda, onların məqsədinin qaranquşluq deyil, bayquşluq olduğunun fərqinə vardınız.

Hesabatda Azərbaycanın gələcəkdə, guya, Ermənistana qarşı təcavüz törədəcəyi məntiqi qabardılır. Hazırda bu "məntiq" Qərb dünyası üçün çox populyardır. Ölkəmizin təcavüzkar obrazının formalaşdırılması niyyətinə hesablanmış belə dezinformasiyalarla beynəlxalq ictimaiyyətin çaşdırılması yolu tutulur. Əlqərəz, saxta hesabat müəllifləri təfəkkürlərinin mücərrəd güşəsindən enerji alaraq düşünürlər ki, Azərbaycan Ermənistan üzərinə hücuma keçsə, Azərbaycandan neft və qaz idxalı dayandırılmalıdır. Nə qədər əbləh olasan ki, belə bir sərsəm iddianı gündəmə gətirəsən? Adam təəccüblənir. Mənzərə axmaq adamın oturduğu ağac budağını kəsməsinə bənzəyir. Bu duruma müəyyən mənada sevinməliyik. Sevinməliyik ki, nə yaxşı Avropa Parlamenti söz sahibi deyil...

***

İndi isə qısaca AP-nin Nazirlər Şurasının qəbul etdiyi ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsinə dair illik hesabatından söz açaq. Niyə qısaca? Çünki bu hesabat da prinsipcə əvvəl haqqında söz açdığımız sənədin oxşarıdır. Başlıca vurğunun Azərbaycanın Qarabağ ermənilərinə qarşı "əvvəlcədən planlaşdırılmış və əsassız" hücumunun pislənilməsinə qoyulmuş hesabatda bir qədər də "irəli gedilərək" erməni mədəni, tarixi və dini irsinin mühafizəsi tələb olunub. Bildirilib ki, Qarabağ UNESCO standartlarına və Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğundur. Təzadlı məqama baxın: bir tərəfdən Qarabağ, faktiki olaraq, Azərbaycana məxsus olmayan ərazi kimi göstərilir, antiterror tədbirləri işğalçı müharibə qismində vurğulanır, məsuliyyət məsələsinə gəlincə, yada Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklər salınır.

Hesabatda "Qarabağa qarşı son hərbi əməliyyat və de-fakto etnik təmizləmə nəticəsində ciddi şəkildə əngəllənən" Ermənistan və Azərbaycan arasındakı sülh danışıqlarının davamına dəstək ifadə olunub. Əlbəttə, belə məntiq heç də pozitiv yanaşmadan xəbər vermir. Çünki ardınca bildirilənlər onu deməyə əsas verir ki, avropalıların fikrincə, sülh Ermənistanın hazırkı hakimiyyətinin qorunmasına xidmət göstərməlidir. Heç şübhəsiz ki, həm də gücləndirilməsinə. Görünür, hesabat müəllifləri baş nazir Nikol Paşinyan administrasiyasının təxribatçı hərəkətlərinin yekunda onun iqtidarının laxlaması reallığını doğurduğunun fərqinə varıblar. Onların diqqət yetirdiyi digər məqam isə Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığıdır. Burada da qara-qışqırıq salınması əsas götürülüb. Sanki, kimlərsə ölkəni işğal etməyə hazırlaşırlar...

***

Bəli, əvvəldə də bildirdik ki, Qərb dünyası belə qərəzli və aşkar erməniپərəst niyyət güdən hesabatlar yaymaqla, əslində, Cənubi Qafqazdakı durumu gərginləşdirmək yolu tutur. Çünki hər belə sənəd avantürist məqsədlərə və Azərbaycana qarşı ərazi iddiasına köklənmiş Ermənistan üçün növbəti illüziya qaynağıdır. Regiondakı durumun ağırlaşması isə heç şübhəsiz, həmin Qərbin üstündə əsdiyi Paşinyan iqtidarı üçün acınacaqlı durum vəd edir. Buna görə də avropalıların reallıqları görmələri, ondan çıxış etmələri, anti-Azərbaycan, erməniپərəst kursu dayandırmaları şərtdir. Onlar nəzərə almalıdırlar ki, illüziya bataqlığına çəkdikləri rəsmi İrəvanın həmin bataqlıqda boğulması yalnız məsələsidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Erməni ictimai rəyi və sülhün ağır şərtləri

## Alen Simonyanın bomba təsiri yaradan açıqlaması hansı müzakirələrə səbəb olub?

(əvvəli 1-ci səhifədə)

Bəli, qeyd etdiklərimiz, ümumən, Ermənistanın hakim komandasının qeyri-ciddiliyinin ən böyük göstəricisidir. Maraqlıdır ki, eyni dəst-xətt bu gün üçün də davamlıdır. Qranada sammitində imzalanmış lakmus kağızlarından ruhlanmış Paşinyanın ictimai televiziyanın efirindəki sərsəmləmələrini təsadüfən xatırlamadıq. Nəzərə alaq ki, ötən üç illik müddət Ermənistanın özünüinkar tarixinin ən riyakar səhnələrinə şahidlik edib. Bu səhnələrin ayrı-ayrı epizodları artdıqca, İrəvanın itkilərinin miqyası genişlənir. Ancaq tipik erməni xəstəliyi bunu görməyə və rasional qərar verməyə imkan tanımır. Deməli, müxaliflər Paşinyan və komandası üçün heç bir "qırmızı xətt" anlayışının olmadığını vurğulamaqda haqlıdırlar.

Ermənistanın əks siyasi düşərgəyə mənsub şəxsləri onu da bildirirlər ki, Paşinyan iqtidarının təmsilçilərinin nəzərlərindəki "qırmızı xətt" anlayışında ölkənin və xalqın maraqları yoxdur, onlar hər şeyi yalnız öz hakimiyyətlərini saxlamaq naminə həyata keçirirlər. Azacıq diskomfortu oturduqları kresloları üçün təhlükə kimi dəyərləndirib dərhal tədbirlər görməyə girişirlər. Bu zaman isə son dərəcə məsuliyyətsiz, reallıqdan uzaq bəyanatlar səsləndirir, nəticə etibarilə xalqı və ictimaiyyəti aldadırlar.

Ermənistanın müxalifət təmsilçiləri bir məqamı da vurğulayırlar ki, Paşinyan hakimiyyətinin məsuliyyətsizliyini və qeyri-ciddiliyini Bakıda və Ankarada görürlər. Onlar bu səbəbdən əmindirlər ki, Azərbaycanla imzalanacaq sülh müqaviləsində Qarabağ əhalisinin hüquqları və təhlükəsizliyi, habelə bölgədə etnik təmizləmə, erməni hərbi əsir və girovların qaytarılması haqqında heç bir müddəa yer almayacaq. Eyni zamanda, müqavilə Bakıya Qazaxın 7 kəndini və Naxçıvanın Kərki kəndini tələb etmək imkanı verəcək. Əgər bu şərtlər yerinə yetirilməsə, Azərbaycan durumu yenidən hərbi əməliyyatlara başlamaq üçün bəhanəyə çevirəcək.



Diqqətə çatdırdıqlarımız fonunda vurğulanmalı başlıca məqam isə Ermənistanda əks düşərgədə yer alanların özlərinin də xəstə təfəkkür daşıyıcıları olmalarıdır. Bu adamlar reallıqları, özü də obyektiv reallıqları görürlər, amma məsələni haqq kimi qiymətləndirmək istəmirlər, əksinə vəziyyəti Paşinyan iqtidarına qarşı etiraz müstəvisinə gətirib, özlərinin barışmazlıq məntiqlərini işə salırlar. Nəticədə Nikol və komandası çaşqınlıq içinə düşür. Çünki hazırkı erməni iqtidarı qətiyyətsiz və cəsarətsizdir. Əslində, 44 günlük müharibədən sonra Ermənistanın Azərbaycanla sülhə gəlməməsində, çoxsaylı manipulyasiyalara baş vurmasında haqqında söz açdığımız cəsarətsizliyin və qətiyyətsizliyin də payı böyükdür. Təbii ki, bu, heç də rəsmi İrəvanın da anti-sülh mövqeyində olub avantürizmə meyil göstərmədiyini söyləmək üçün əsas deyil...

***

Qeyd edək ki, Ermənistandakı müxalif kəsim A.Simonyanın açıqlaması fonunda Qərb amilini də qabardır. Düşərgəyə məxsus siyasilər ABŞ-ın sülh lobbiçiliyi üzərində dayanırlar. Məlum olduğu ki, artıq Ermənistanda belə bir fikir var ki, Azərbaycanla ABŞ arasında Ermənistan xüsusundakı gərginlik görüntü xarakteri daşımaqdadır və bu görüntü sonda, loru dildə desək, İrəvanın başında çatlayacaq. ABŞ Azərbaycanın mövqeyini qəbul edir və sülh müqaviləsində Qarabağ erməniləri ilə bağlı heç bir müddəanın olmaması ilə razılaşır. Əks halda, bölgədəki rus sülhməramlılarının gələcək mövcudluğu üçün əsas qalacaq. Digər tərəfdən, Ermənistanda hesab edirlər ki, ABŞ Azərbaycanla dövlət katibinin köməkçisi Ceym O'Braynın fikirlərindən sonra yaranmış gərginliyi aradan qaldırmaqda maraqlıdır. O cümlədən, Birləşmiş Ştatların rəsmi Bakının sərt yanaşmasını yumşaltmaq istədiyi fikri önə çəkilir.

Qeyd edək ki, ötən həftə ABŞ Senatının aşağı palatası olan Nümayəndələr Palatasında Qarabağla bağlı, habelə Azərbaycana dövlət yardımının dayandırılmasına dair dinləmələr keçirilmişdi. Həmin dinləmələrdə C.O'Brayn Ermənistanla sülh danışıqlarında irəliləyiş əldə olunmayana qədər, Azərbaycanla ikitərəfli əlaqələrin olmayacağını vurğulamışdı. Erməni siyasilər Bakının buna qarşılıq qətiyyətli mövqe tutduğunu bildirir və hesab edirlər ki, A.Simonyanın və onun şəxsində erməni iqtidarının hazırkı dişsiz duruma düşməsi elə bununla bağlıdır.

Əlbəttə, qeyd etdiyimiz kimi, Paşinyandan narazı kəsimin təmsilçiləri reallıqları dilə gətirsələr də, bunu hadisələrin gedişinə pozitiv təsir göstərmək üçün etmirlər. Sən demə, daha konkret səciyyə daşıyan məqsədləri var. Onlar rəsmi Vaşinqtonun İrəvanı Bakının hazırkı şərtlərilə sülhə gətirmək niyyətini Rusiyanın mümkün təsirindən sığorta xüsusunda qiymətləndirirlər. Bildirirlər ki, münaqişəni hamarlaşdırmağa çalışan Birləşmiş Ştatlar dekabrın son ongünlüyündə Sankt-Peterburqda keçiriləcək Avrasiya İqtisadi İttifaqı liderlərinin sammitinə və MDB ölkələri liderlərinin qeyri-rəsmi görüşünə qədər, Ermənistan üçün alçaldıcı sülh müqaviləsinin imzalanması prosesini sürətləndirməyə çalışır. Erməni siyasilər bu qənaətə gəlirlər ki, hazırkı məqamda hər şey Azərbaycan Prezidenti İlham Əliyevdən asılıdır. Onların fikrincə, Qarabağ kitabı artıq çoxdan bağlanıb, Ermənistan qoyulan şərtlərlə razılaşmalıdır. Başqa çıxış yolu isə istefadır...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Haylara qucaq açanların “səlib demarşı”

## Ermənistana “can-can” deyənlər onun “can”ını zərbə altında qoyurlar

**Hayastan mediasının tirajladığı xəbərlərə görə, Londonda keçirilən Ermənistan və Böyük Britaniya arasında ikitərəfli strateji məsləhətləşmələrdən sonra bu iki ölkə arasında 2023-2024-cü illər üçün hərbi əməkdaşlıq proqramı imzalanıb. Bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**



Məlumatda deyilir ki, Ermənistan Müdafiə Nazirliyinin müdafiə siyasəti və beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Levon Ayvazyan britaniyalı həmkarlarına İrəvanın irəli sürdüyü “dünyanın kəsişməsi” layihəsini də təqdim edib. Məsləhətləşmələr zamanı ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Sənəddə qeyd olunub ki, Ermənistan və Böyük Britaniya arasında müdafiə sahəsində əməkdaşlıq ingilis dilini öyrənən erməni hərbi və polis zabitlərinin sayının artması, böyük və kiçik komandanlıq və idarəetmə heyəti üçün Böyük Britaniyada təlim kurslarında yerlərin artırılması, həmçinin mina təhlükəsi ilə bağlı çoxmillətli sülhməramlılıq və yardım proqramları ilə yanaşı, dərinləşməkdə davam edir. Bundan əlavə, tərəflərin tezliklə hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq haqqında saziş bağlayacağı bildirilir. Böyük Britaniyanın Avropa məsələləri üzrə nazirinin də Ermənistana səfəri gözlənilir.

İrəvan–London təmaslarının ikitərəfli sülh danışıqlarının həlledici mərhələyə qədəm qoyduğu məhz indiki məqamda fəallaşması müəyyən suallar doğurmaya bilməz.

Dünən Şimali Makedoniyanın paytaxtı Skopyedə öz işinə başlayan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Xarici İşlər Nazirləri Şurasının 30-cu iclası başlamazdan öncə Ermənistan xarici siyasət idarəsinin başçısı Ararat Mirzoyan “çox isti” ikitərəfli görüşlər keçirib. Verilən məlumatlardan belə nəticə hasil olur ki, Mirzoyan ABŞ Dövlət katibi Antoni Blinkenə və Böyük Britaniyanın xarici işlər naziri Devid Kemerona Azərbaycandan şikayət edib. Onlara Qarabağ ermənilərinə qarşı “etnik təmizləmə”dən, “Bakının sülh danışıqlarında qeyri-konstruktiv” mövqe tutmasından danışıb. Bundan başqa, hayların baş diplomatı Ermənistan hökumətini hazırladığı “dünyanın qovşağı” kimi regional proqramdan söz açıb, onun reallaşması nəticəsində, guya, Cənubi Qafqazda sabitliyin əldə olunacağını xüsusi qeyd edib.

Aydın məsələdir ki, rəsmi İrəvanın məqsədi Qərbin aparıcı dövlətlərinin Azərbaycanla normal əməkdaşlığını pozmaq, ikitərəfli münasibətləri gərginləşdirməkdir. Əslində, Ararat Mirzoyanın Skopyedəki “səhnə arxasında” keçirdiyi görüşlərin və Antoni Blinkenə, Devid Kemerona verdiyi “dezinformasiyaların” məqsədi bundan ibarətdir. Ermənistanın “böyük bacısı” Fransa ilə münasibətləri və ondan aldığı hərtərəfli dəstək hamıya məlumdur. İntəhası, indi İrəvan ATƏT üzvü olan digər ölkələrlə təmasları intensivləşdirməyə, onların baş diplomatları ilə “izahat işini” gücləndirməyə ciddi “ehtiyac duyur”. Yeri gəlmişkən, Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov ATƏT Xarici İşlər Nazirləri Şurasının Skopyedə keçirilən 30-cu iclası çərçivəsində Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyarto, İsveçin Xarici işlər naziri Tobias Billström, Bosniya və Herseqovinanın Xarici işlər naziri Elmedin Dino Konakoviç və NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ilə ikitərəfli görüşlər keçirib. C.Bayramov onlarla gündəlikdə duran məsələləri, qurumun cari vəziyyəti və perspektivlərini, həmçinin regionda cərəyan edən son hadisələri müzakirə edib.

* * *

Azərbaycan üçün maraq kəsb edən əsas məsələ Fransa, Hindistan və ABŞ-dən sonra Böyük Britaniyanın da Ermənistana “qucaq açmasıdır”. London Ermənistana sərhədlərinin təhlükəsizliyini gücləndirməsi adı altında hərbi-texniki dəstək verməyə başlayıb. Əlbəttə, hadisələrin bu məcrada inkişafı Bakının Londonla birgə gerçəkləşdirdiyi nəhəng və strateji layihələrə təsir göstərmək gücündə deyil. Bəlkə də, Ermənistan və Böyük Britaniya arasında hərbi sahədə əlaqələrin intensivləşməsinin arxasında Londonun sadəcə Cənubi Qafqazda cərəyan edən proseslərdən kənarda qalmamaq istəyi dayanır.

Ermənistan özünü Qərbi Avropa təhlükəsizlik qüvvələrinin tərkib hissəsinə çevirməyə çalışması başadüşüləndir. Amma onun bununla eyni vaxtda Rusiyadan uzaqlaşmaq və “KTMT-nin buxovundan” qurtulmaq üçün gizli səyləri də yaddan çıxarılmamalıdır. Bu baxımdan Rusiya Xarici işlər naziri Sergey Lavrovun ATƏT XİN Şurasının iclasında çıxışı zamanı dediklərini olduğu kimi qəbul etmək lazımdır: “Təəssüf ki, hazırda ATƏT Avropada NATO və Aİ-nin əlavəsinə çevrilib. Bu təşkilatın perspektivi ilə bağlı suallar isə cavablardan daha çoxdur”. Toplantısı çərçivəsində Sergey Lavrov və Ararat Mirzoyan arasında görüş zamanı maraqlı anlar yaşanıb. Lavrov erməni həmkarından görüşdə Ermənistanın Avstriyadakı səfiri və ATƏT-dəki nümayəndəsi Armen Papikyanın iştirak etməməsinin səbəbini soruşub. Mirzoyan “bildiyim qədəri buna ehtiyac olmayıb” – cavabını verib. S.Lavrov isə Mirzoyana “səfiriniz müstəqildir, təlimatsız işləyir?” – ritorik sualı ilə reaksiya verib.

Yəni, görünən odur ki, İrəvan indiki durumda Qərblə hərbi və hərbi-texniki sahələrdə əlaqələrini genişləndirməyə çalışır. Onun Fransadan sonra Böyük Britaniya ilə də əməkdaşlıq haqqında oxşar sənədin imzalanmasına nail olması uzaq məqsədlərindən xəbər verir. Böyük Britaniyaya gəldikdə isə London tarixin sınağından çıxmış gizli “diplomatik gedişləri” də daxil olmaqla, nəinki “köhnə qitədə”, eləcə də bütün dünyada baş verən hadisələrə əhəmiyyətli təsir potensialına malik ciddi oyunçudur. Onun Ermənistana münasibətdə son vaxtlar sərgilədiyi həmin gizli “diplomatik jestin” arxasında Qərbin və ABŞ-ın Azərbaycana qarşı formalaşdırdığı “xristian cəbhəsinə” zorən qoşulması ehtimalı da nəzərdən keçirilməyə layiq versiyalardan biridir.

Bu arada Polşa Prezidenti Andjey Dudanın arvadı Aqata Kornhauzer–Dudanın dünən Ermənistana təşrif buyurmasını da məhz Bakıya yönəlik “səlib demarşı”nın tərkib hissəsi kimi qəbul etməyimiz doğru olmazmı?

İrəvan–London təmasları ilə bağlı oxucularımıza bir faktı da xatırlatmağımız yerinə düşər. Təxminən bir il bundan əvvəl Xankəndidəki daşnak-separatçı rejimin təşkil etdiyi və Qərbin ermənipərəst dairələrinin dəstəklədiyi “blokada”, “humanitar böhran” şouları zamanı Avropa İttifaqı ilə yanaşı Böyük Britaniya da Laçın-Xankəndi və Ağdam-Xankəndi yolu ilə eyni vaxtda Qarabağın erməni sakinlərinə humanitar yardım çatdırılmasını alqışlamışdı. Düzdür, Londonun bu dəstəyi diplomatik açıqlamadan uzağa getməsə də, Bakı bunu Böyük Britaniya – Azərbaycan münasibətlərinə kölgə sala bilməyəcək jest kimi qəbul etmişdi.

* * *

Ermənistanı bağrına basmağı “arzulayanlardan” biri də Litvadır. Noyabrın 29-da Ermənistan–Litva parlamentlərarası dostluq qrupunun üzvləri İrəvana üçgünlük səfərə gəliblər. Onlar dostluq qrupunun Ermənistan tərəfdən rəhbəri, parlamentin deputatı Arsen Torosyanın müşayiəti ilə Ararat vilayətində Yerasx icmasının sərhədyanı ərazilərini ziyarət ediblər. Litvalı parlamentarilər burada Avropa İttifaqının mülki müşahidə missiyasının nümayəndələri ilə də görüşüb, sərhədyanı rayonlarda mövcud vəziyyət onların nəzərinə çatdırılıb. Daha sonra dövriyyəyə Arsen Torosyanın feyk-məlumatları “daxil olub”. Erməni deputat Baltikyanı ölkədən gələn yüksək qonaqları Ermənistan–Amerika investisiyası ilə tikilməsi planlaşdırılan metallurgiya zavodunun keçmiş ərazisinə aparıb. Həmin ərazidə inşaat işlərinin dayandırılmasının səbəbi kimi isə guya, Azərbaycan Silahlı Qüvvələrinin tikintidə çalışanları atəşə tutmasını göstərib.

Yenə yalana, saxtakarlığa söykənən feyk-informasiyaları siyasi təzyiq alətinə çevirməyə cəhdlər edən, avropalı “dindaşlarının” vədlərinə uyan Hayastan rəsmiləri bununla nəyəsə nail olmağa çalışırlar. Fəqət faydasız və nəticəsiz vurnuxmalardan əl çəkməyən İrəvanın Bakı ilə ikitərəfli təmaslara başlamaqdan, sülh sazişinə aparan yola gəlməkdən savayı şansının olmadığını bir daha xatırlatmağa ehtiyac var.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fuad ÇIRAQOV,**
**siyasi şərhçi**

İrəvan–London hərbi əməkdaşlığı Böyük Britaniyanın da maraqlarına cavab verir. London Cənubi Qafqazda Rusiyanın mövqeyinin zəifləməsi səbəbindən öz nüfuzunun artmasının qayğısına qalmağa başlayıb. Londonda bəlkə də belə düşünürlər ki, Britaniyanın bu siyasəti onun bölgədəki enerji və infrastruktur layihələrinin təhlükəsizliyinə də cavab verir. Ümumiyyətlə, Cənubi Qafqazda cərəyan edən proseslərdən kənarda qalmaq istəmir. ABŞ, Fransa, Avropa İttifaqının bölgəyə aid məsələlərin müzakirəsinə, perspektivə yönəlik təşəbbüslərə fəal şəkildə qoşulduqlarını görən Böyük Britaniya da öz töhfəsini verməyə çalışır.

Aydın məsələdir ki, Londonun bu xarakterli addımları heç bir halda Azərbaycanın qırmızı xəttini keçməməlidir. Əlbəttə, burada söhbət ölkəmizin ərazi bütövlüyü, təhlükəsizliyi kimi məsələlərdən gedir. Görünən budur ki, Ermənistan özünün xarici siyasətini dəyişmək kursunu götürüb. Fəqət İrəvan, necə deyərlər, “ağasını dəyişməyə çalışırsa” yenisini bizim üstümüzə göndərməməlidir.

# Sərhəddə görüş: irəliləyiş, yoxsa yerində qaçış?

(əvvəli 1-ci səhifədə)

Ermənistan XİN-in yaydığı məlumatda da oxşar fikirlər yer alıb. Bildirilib ki, tərəflər sərhədin delimitasiyası məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələlərini həll ediblər. “Komissiyaların növbəti iclasının tarixini və yerini işçi qaydada dəqiqləşdirmək də razılaşdırılıb”, – deyə Ermənistan XİN-in məlumatında qeyd olunub.



Məlumdur ki, Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi apararaq öz torpaqlarını işğaldan azad edib. 2020-ci il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə bütün ölkə ərazisində dövlət suverenliyimiz bərqərar olunub. Lakin ölkəmizin 8 kəndi hələ də işğal altındadır. Bunlar hələ SSRİ dövründə Azərbaycanın Ermənistan ərazisində yerləşən (anklav) kəndləridir. Qeyd edək ki, anklav beynəlxalq hüquqda bir dövlətə məxsus, amma hər tərəfdən digər dövlətin əraziləri ilə əhatə olunmuş əraziyə deyilir. Qazax rayonunun Bağanis Ayrım, Xeyrimli, Barxudarlı, Sofulu, Yuxarı Əskipara, Aşağı Əskipara və Qızıl Hacılı kəndlərinin, həmçinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndinin taleyi hələ də qeyri-müəyyəndir.

Rəsmi Bakı anklav kəndlərin qaytarılması məsələsini müxtəlif platformalarda qaldırır. Ölkəmiz kəndlərin qaytarılmamasını işğalın davamı adlandırır və həmin yaşayış məntəqələri üzərində də suverenliyimizin təmin edilməsi məsələsində israrlı olduğu özünü aydın göstərir. Prezident İlham Əliyev oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, həmin kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Ermənistanın isə sovet dövründə Azərbaycan ərazisində yalnız bir anklavı olub. Hayların Artsvaşen adlandırdıqları və inzibati baxımdan Gexarkunik vilayətinə (əsl adı Göyçə mahalı) daxil olduğunu iddia etdikləri həmin kənd Gədəbəy rayonunun inzibati-ərazi vahidindəki Başkənddir. Kənd 1992-ci il 6-8 avqust tarixlərində həyata keçirilən “Başkənd əməliyyatı” nəticəsində Azərbaycanın nəzarəti altına keçib.

Onu da bildirək ki, 8 kəndin Azərbaycana qaytarılmasının zəruriliyini İrəvanda da dərk edirlər. Ermənistan hökumətinin başçısı Nikol Paşinyan bu il mayın 22-də keçirdiyi mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisinə Qarabağın da daxil olduğunu etiraf etmişdi. Bundan əlavə, Paşinyan bildirmişdi ki, anklavlar Azərbaycanın ərazi bütövlüyünün bir hissəsidir: “29,8 min kvadratkilometrlik Ermənistanın ərazi bütövlüyünə isə Artsvaşen də daxildir. Anklavlar məsələsinin həlli üçün bir neçə variant var. Onlardan biri bu ola bilər: xəttin hər iki tərəfindəki anklav ərazilər yerləşdikləri tərəfin nəzarəti altında qalır. Digər variant isə odur ki, sülh müqaviləsi imzalandıqdan sonra Artsvaşen Ermənistanın, qalan ərazilər isə Azərbaycanın suverenliyi altına qayıdacaq. Bu, siyasi nöqteyi-nəzərdən olan mövqedir, lakin hüquqi aspekt hələ də öyrənilməlidir”.

N.Paşinyanın Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyanın Qranada şəhərində baş tutan III sammiti çərçivəsində keçirilən dördtərəfli görüşün nəticəsi olaraq imzaladığı bəyannamədə də bu mövqe təkrar olunub. Həmin bəyannamədə də Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığı vurğulanıb. Üstündən iki aya yaxın vaxt keçməsinə baxmayaraq, məlum bəyannamə hələ də sosial şəbəkələrin erməni seqmentində və mediada qızğın müzakirə olunur. Bununla bağlı hazırda Ermənistanda əsassız hay-küy, təşviş müşahidə olunmaqdadır. Məsələn, müxalifətdə olan Respublika partiyasının ali orqanının üzvü, səkkiz il (2011-2019-cu illərdə) Ermənistan parlamentinin sədr müavini olmuş Eduard Şarmazanov bildirib ki, Paşinyan iqtidarının imzalamağa hazır olduğu sənəd sülh müqaviləsi deyil, reallığa boyun əymək müqaviləsidir. O qeyd edib ki, hazırkı erməni hakimiyyəti Bakı və Ankaranın yazdığı hər şeyi imzalayacaq: “Bu, ikinci kapitulyasiya, Ermənistanın türkləşdirilməsi proqramı olacaq. Ermənistan hakimiyyətinin bu günə qədər Bakının tələblərinə “yox” dediyini xatırlamıram. Bakı Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınmasını tələb etdi, Paşinyan həmin tələbi məmnuniyyətlə yerinə yetirdi. Azərbaycan anklavları tələb edir, Ermənistan hakimiyyəti artıq belə bir problemin mövcudluğunu tanıyır. Üstəlik, Ermənistanın yüksək rütbəli məmurlarından biri qeyd edib ki, artıq dörd kənd üzrə bütün məsələlər öz həllini tapıb”.

Şarmazanov qeyd edib ki, Ermənistanı təmsil edən şəxslərin imzalamağa hazır olduqları sənədin məzmunu barədə, ümumiyyətlə heç bir təsəvvürləri yoxdur: “Bakı və Ankaranın yazdıqlarına imza atacaqlar. Paşinyan tələblərdən hər hansı birinə mənfi cavab versə, Azərbaycan hərbi əməliyyata başlayacaq”.

Bu arada erməni jurnalistlər hayların “Voskepar” adlandırdıqları Əskipara kəndində olaraq oradan reportaj hazırlayıblar. Kənddə məskunlaşmış Tatul Karapetyan əli ilə evləri göstərərk deyib: “Bu üç ev Azərbaycan sərhədində yerləşir. Biz çoxdandır ki, burada yaşayırıq. Əgər bu ərazi Azərbaycana verilsə, onların hərbçiləri dərhal bura gələcəklər. O zaman biz nə edəcəyik?!”

Kəndin yaşlı sakini Komitas Unanyan isə sovet dövründə azərbaycanlılarla normal qonşuluq münasibətlərinə malik olduqlarından söz açıb: “Azərbaycanlılar bizim bütün toylarda iştirak edirdilər. Biz də onların toylarına gedirdik. Birlikdə müxtəlif tədbirlər keçirirdik. Həmin illərdə bizim aramızda çox yaxşı münasibətlər var idi. Mənim bildiyim qədər bizim bir kəndimiz – Artsvaşen də Azərbaycanda yerləşir. Ora hansısa ermənin qayıdacağını düşünmürəm. Yaxşı olardı ki, bizim kəndimiz azərbaycanlılara, onların kəndi isə bizə qalsın. Çünki bizə qalan kəndlər strateji cəhətdən vacibdir. Həmin yol bizi İranla, Gürcüstanla birləşdirir. Anklav kəndlər Azərbaycana verilsə, biz İrana və Gürcüstana rahat gedib-gələ bilməyəcəyik”.

Zarui Manuçaryan qeyri-müəyyən vəziyyətdə olduqlarını bildirib. Deyib ki, yaxın gələcəkdə nə olacağını heç kim bilmir: “İnsanlar gələcəyə olan inamlarını itiriblər. Burada iş yerləri yoxdur. Həyat çox ağırdır. Buna görə də çoxları, əsasən də gənclər kəndi tərk ediblər. Anklavlar məsələsi bu gün bizi çox narahat edir. Deyirlər ki, azərbaycanlılar bura qayıtmaq istəyirlər. Belə olan halda mən hara gedəcəyimi bilmirəm”.

Əlbəttə, kənd sakinlərinin anklavların Azərbaycana qaytarılmasının qeyri-real olduğunu iddia etmələri heç bir hüquqi əhəmiyyət daşımır. Azərbaycan öz ərazisini erməni işğalından azad edib və bütün Qarabağ və Şərqi Zəngəzur üzərində dövlət suverenliyimiz bərqərar olunub. İndi Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması üçün rəsmi İrəvan 8 anklav kəndi də qaytarmalıdır. Həmin kəndlərdən zorla qovulan azərbaycanlılar doğma yurdlarına qayıtmadıqca iki ölkə arasında problemləri tam həll olmuş saymaq mümkün deyil.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Azərbaycanla Ermənistan arasında noyabrın 30-da sərhəddə belə bir görüşün keçirilməsi əvvəlcədən planlaşdırılmışdı. Görüşün keçirilməsi çox önəmlidir. Çünki Qərb, yaxud Rusiya platformasında keçirilən görüşlərdə böyük fasilə var. Bu da müəyyən konyukturanın, qərəzliliyin nəticəsidir. Ermənistan Rusiya ərazisində görüşlərin keçirilməsi məsələsini tamamilə başqa cür qəbul və şərh edir. Azərbaycanın isə Qərbin qərəzli münasibəti qarşısında prinsipial duruşu və siyasi iradəsi mövcuddur. Belə olan halda, əlbəttə, birbaşa danışıqlar, təmaslar daha düzgündür. İndiki format Azərbaycan tərəfindən hər zaman dəstəklənib və prioritet hesab olunub.

Dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların işi bir sıra məqsədlərə xidmət edir. Yaddan çıxarmamaq lazımdır ki, komissiya həm də nəqliyyat-kommunikasiya xətlərinin açılması üzrə işçi qrupunun davamıdır. Onun inkişaf etdirilməsi üçün əsas determinantdır. Bu işlər paralel şəkildə icra olunur.

Düşünürəm ki, burada problemli və həlli müəyyən zaman tələb edən məsələlər olsa da, artıq delimitasiya komissiyasının əsasnamə layihəsinin hazırlanmasına dair razılıq əldə olunması önəmli haldır. Düşünürəm ki, əsasnamə yaxın vaxtlarda hazırlanacaq və təsdiq olunacaq. Eyni zamanda, qarşıdakı dövrdə komissiyanın görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair mövqe ifadə olunması göstərir ki, danışıqlar düzgün məcrada gedir.

Komissiyanın işini biz həm də anklavlar məsələsinin həlli üçün əsas element hesab edirik. Çünki sərhədlər müəyyənləşərsə, beynəlxalq səviyyədə sərhədlərə hörmət ifadə olunarsa, ərazi iddiaları olmazsa, o zaman anklavlar məsələsi də həllini tapar.

# Sahibə Qafarovanın Almaniya səfəri

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Almaniya Federativ Respublikasında rəsmi səfərdədir. Səfər çərçivəsində S. Qafarova paytaxt Berlində yerləşən "GalleryBerlin"də təşkil olunan "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi ilə tanış olub.**



Parlamentinin Sədri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin misilsiz xidmətlərindən söhbət açb, onun Azərbaycan mədəniyyətinə diqqət və qayğısı barədə fikirlərini bildirib. O, Prezident İlham Əliyevin bütün digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əsası ulu öndər tərəfindən qoyulmuş işləri uğurla davam etdirdiyini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova Almaniya Federativ Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkədə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində də olub. Spikeri burada Azərbaycan-Almaniya Forumunun üzvləri ilə görüşüb.

S.Qafarova Azərbaycanın sosial-iqtisadi inkişafı, ölkəmizdə həyata keçirilən islahatlar, Azərbaycandakı investisiya mühiti, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri barədə geniş məlumat verib.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Berlində Almaniya Bundestaqının Almaniya–Cənubi Qafqaz parlament qrupunun rəhbəri Johann David Vadephul ilə görüşüb. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Görüşdə regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirdiyi bərpa və quruculuq işləri, ölkəmizin Ermənistanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüsləri haqqında da məlumat verilib.

***XQ***

# Avroparlament beynəlxalq hüququ saya salmır

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin 2023-cü il noyabrın 29-da "Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi", həmçinin "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi" ilə bağlı qəbul edilən illik hesabatlarında Azərbaycanla bağlı öz əksini tapmış beynəlxalq hüquqa zidd, qeyri-etik, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş gülünc və qərəzli fikirləri qətiyyətlə rədd edir.**

Qeyd edilib ki, Avropa Parlamentinin, sanki, bölgədəki reallıqlardan heç bir anlayışı yoxdur. Avropa Parlamentindəki həmkarlarımıza xatırladırıq ki, "Dağlıq Qarabağ münaqişəsi", "Laçın dəhlizi" kimi artıq keçmişdə qalmış məsələlərə istinad olunması tamamilə məntiqsizlikdir.

Avropa parlamentarilərinin Avropa İttifaqının Ermənistandakı missiyasının Azərbaycan ərazisində yerləşdirilməsi ilə bağlı çağırışı təhlükəli geosiyasi rəqabətin Cənubi Qafqaz regionuna gətirilməsi cəhdi kimi yolverilməzdir və onların bəlli dairələrin Azərbaycana qarşı düşmənçilik fəaliyyətində alətə çevrildiyini göstərir.

Bəyanatda bildirilir ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda nəzərdə tutulan öhdəliklərin, xüsusilə Ermənistan silahlı qüvvələrinin Qarabağdan tamamilə çıxarılması ilə bağlı öhdəliyin məhz Ermənistan tərəfindən yerinə yetirilməməsi bu hesabatların müəlliflərinə çox yaxşı məlumdur.

Hesabatlarda Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağda antiterror tədbirləri çərçivəsində öz suverenliyini bərpa etməsinin hərbi təcavüz adlandırılması, habelə Azərbaycanın beynəlxalq normaları pozduğunu iddia edərək, ona qarşı sanksiyaların tətbiqinə çağırışların yer alması Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin məsələlərə ikili standartlar, dini və etnik simpatiya əsasında yanaşmasının, korrupsiyaya bulaşmasının bariz göstəricisidir.

***Ə.BƏDƏLOV***
***XQ***

# Bakıda "InMerge İnnovasiya Sammiti"

**Dünən Bakı Konqres Mərkəzində "PAŞA Holdinq"in təşkilatçılığı və "Trendyol Group"un dəstəyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) tərəfdaşlığı ilə keçirilən "InMerge İnnovasiya Sammiti"nin birinci günü yekunlaşıb.**



Açılış nitqi ilə çıxış edən Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, Azərbaycan unikal mədəni tarixini qorumaqla innovasiyaların mənimsənilməsi istiqamətində öz səylərini göstərir. Ölkəmiz texnoloji parkların formalaşdırılması, əlverişli biznesin yaradılması sahəsində bütün sektorlarda innovasiyaların tətbiqinə nail olub, həmçinin BMT-nin "2030 Dayanıqlı İnkişaf Məqsədləri" üçün kompleks tədbirlər nəzərdə tutulur. Milli prioritetlərdən biri də təmiz mühit və yaşıl artım ölkəsinin yaradılmasıdır. Hər bir xalqın rifahı üçün təhsilin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan hökuməti tərəfindən gənclərin dünyanın ali təhsil müəssisələrində təhsil alması üçün əlverişli mühit yaradılıb. Gənclərin İKT sahəsində bacarıqlarının inkişafı üçün təqaüdlər verilir.

Sonra rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda innovasiya ekosisteminin yaradılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. Nazir dayanıqlı innovasiya ekosisteminin formalaşması üçün sağlam infrastruktur, istedad və investisiyaların cəlbi, eləcə də rəqabətli bazarın vacibliyini qeyd edib.

İqtisadiyyat nazirinin müavini Elnur Əliyev çıxışında qeyd edib ki, sahibkarlığın inkişafı iş yerlərinin açılması sərmayə qoyulmasının asanlaşdırılması üçün imkanlar yaradır. O bildirib ki, növbəti on il ərzində bu sahəyə böyük sərmayə qoyuluşu planlaşdırılır.

Türkiyənin "Trendyol Group" şirkətinin direktoru Erdem İnan deyib ki, bu il "InMerge İnnovasiya Sammiti"nin innovasiyanın gələcəyə doğru növbəti addımı olacağına inanır: "Bu il biz "Trendyol" olaraq Azərbaycanda "PAŞA Holdinq" ilə əməkdaşlığa başlamışıq. Bizim Azərbaycanda "PAŞA Holdinq" ilə 6 aylıq əməkdaşlığımız nəticəsində 1,3 milyondan çox istifadəçimiz var. Biz bu rəqəmi daha da böyütməyi planlaşdırırıq".

"PAŞA Holdinq" şirkətinin baş icraçı direktoru Cəlal Qasımov qeyd edib ki, uğurlu şirkətlərin inkişafı üçün onların daxilində innovasiyalar dəstəklənməlidir. O bildirib ki, bu il regiona 15-dən çox investor cəlb edilib.

İki günlük sammitdə müxtəlif dövlət qurumları və özəl şirkətlər vörkşoplar, panel sessiyaları və stendlə təmsil olunur.

***XQ***

# Murovdağdan Kəlbəcərə 14 kilometr tunel çəkilib

**Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumata görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri olan 82 kilometr uzunluğa malik Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu sürətlə tikilir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən bu avtomobil yolunun layihə uzunluğu Toğanalı-Kəlbəcər üzrə 56 kilometr, Kəlbəcər-İstisu üzrə isə 26 kilometr təşkil edir. Toğanalı-Kəlbəcər layihəsinin 13-cü kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır.**



Məlumatda, həmçinin qeyd edilir ki, bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin (L=23.4 kilometr) inşası da davam etdirilir. İnfrastrukturun bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacağı nəzərdə tutulur. Eyni zamanda, müvafiq şəkildə 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir.

Sol və sağ hissələrdən ibarət olan, sol hissəsi 11 min 713,1 metr, sağ hissəsi isə 11 min 691,9 metr (ümumi uzunluğu 23 min 405 metr) uzunluğa malik olacaq Murovdağ tunelinin (Tunel №3) sol hərəkət istiqaməti üzrə, ümumilikdə, 7 min 60 metr qazma və püskürtmə işləri, 4 min 160 metr isə kəmər betonu işləri tamamlanıb, sağ istiqamət üzrə isə ümumilikdə 7 min 25 metr qazma və püskürtmə işləri, 1722 metr isə kəmər betonu əməliyyatları tamamlanıb. Bundan başqa, Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən 20 bağlantı yolu (keçid tunel) inşa edilib və yeni bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir.

561,2 metr uzunluğunda olan Tunel №1-də, 626,9 metr uzunluğunda olan Tunel №2-də və uzunluğu 947,9 metr təşkil edən Tunel №5-də artıq qazma, püskürtmə və kəmər betonu işləri tamamlanıb. Uzunluğu 500 metr olan Tunel №4-də isə qazma və püskürtmə betonu işləri davam etdirilməkdədir.

Dövlət başçısının tapşırığına əsasən, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun şəkildə inşa edilir. Belə ki, layihənin keçdiyi ərazinin sərt dağlıq və qayalıq relyefi nəzərə alınaraq, yolun əsas hissəsinin II texniki dərəcəyə uyğun, yəni hərəkət hissəsinin 2 zolaqlı, yoxuşlarda isə əlavə zolaq verilməklə tikintisi nəzərdə tutulub. Murovdağ tuneli olan hissədə isə 1-ci texniki dərəcəyə uyğun 4 hərəkət zolağının inşası həyata keçirilir. Layihə üzrə I dərəcəli yolun ümumi uzunluğu 14.2, II dərəcəli yolun ümumi uzunluğu 34,8 kilometr, III dərəcəli yolun ümumi uzunluğu isə 33 kilometr təşkil edir.

Layihə üzrə ümumi uzunluğu 2 min 968 metr olan 6 qovşağın və ümumi uzunluğu 5 min 600 metr olan 36 bağlantı yolunun tikintisi də icra olunmaqdadır.

Yolun Toğanalı-Kəlbəcər hissəsində hazırda ərazi təmizlənməsi, bitki qatının çıxarılması, qazma və dolğu, həmçinin süni qurğuların tikintisi işləri davam edir. Ümumi qazma işləri 66 faiz, dolğu işləri isə 69 faiz tamamlanıb. Həmin hissələrdə yol əsasının tikintisi və asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Yolun Kəlbəcər–İstisu hissəsində isə müəyyən hissələr üzrə ərazi təmizlənməsi, bitki qatının çıxarılması, qazma və dolğu işləri, süni qurğuların tikintisi işləri davam edir.

Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Bu, sözügedən rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişini təmin edəcək.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 428** **Bakı şəhəri, 28 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, "Notariat haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 867-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 iyun tarixli 2166 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723, № 6, maddə 851, № 8 (II kitab), maddələr 1256, 1273) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1. 15-ci hissənin üçüncü abzasına "maraqlı şəxs" sözlərindən sonra "(sosial xidmət müəssisəsində yerləşdirilən şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 15-2-ci hissə əlavə edilsin:

"15-2. Sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər notariat ofisinə gəlmədən, əvvəlcədən onların xahişi ilə sosial xidmət müəssisəsinin müdiriyyəti tərəfindən verilmiş bildiriş (notariat hərəkətlərinin aparılması ilə əlaqədar yazılı və ya elektron müraciət) əsasında notariat hərəkətlərinin aparılması üçün qanunvericiliklə tələb olunan sənədlər, o cümlədən sosial xidmət müəssisələrinə yerləşdirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd ("Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsi nəzərə alınmaqla) notariusa təqdim edilməklə notariat hərəkəti sosial xidmət müəssisəsində aşağıdakı xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilir:

15-2.1. bildirişdə müraciət edilən notariat hərəkətlərinin adı və sayı, xidmətin göstərildiyi yer və başlanma və başa çatma vaxtı (gün və saat), müraciət edənin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi və əlaqə vasitələri (mobil və stasionar telefon nömrələri) əks edilir;

15-2.2. sosial xidmət müəssisəsinin müdiriyyəti tərəfindən verilmiş bildiriş notariat işində saxlanılır;

15-2.3. sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər tərəfindən verilən etibarnamələrin rəsmiləşdirilməsinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq alınmır;

15-2.4. sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər barəsində notariat hərəkətləri sosial xidmət müəssisələrinin olduğu inzibati ərazi üzrə notariat ofisinin və ya həmin müəssisənin yerləşdiyi əraziyə ən yaxın notariat ofisinin notariusu tərəfindən aparılır;

15-2.5. notarius nəqliyyat xərclərinin ödənilməməsinə görə sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər tərəfindən verilən etibarnamələrin təsdiq edilməsinə dair notariat hərəkətlərini aparmaqdan imtina edə bilməz.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 429** **Bakı şəhəri, 28 noyabr 2023-cü il**

***"İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Notariat haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1954; 2019, № 6, maddə 1142; 2021, № 10, maddə 1170; 2022, № 2, maddə 180) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 2-1 nömrəli əlavə – "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar tərtib edilən inzibati xəta haqqında Elektron Protokol"da "və hüquqi ünvanı" sözləri ", hüquqi və faktiki ünvanları" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan və bu qaydaların pozulması ilə əlaqədar digər inzibati xətalarla bağlı çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"a "fərdi identifikasiya nömrəsi" sözlərindən sonra "(əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i" sözləri əlavə edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş 3-1 nömrəli əlavə – "Əmək, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər və icbari sığorta sahələrində qanunvericiliyin pozulması ilə əlaqədar çıxarılan inzibati tənbeh vermə haqqında Elektron Qərar"-da "və yaşadığı ünvan" sözləri "(əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i" sözləri ilə əvəz edilsin.

**4.** Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə – "İnzibati tənbeh vermə haqqında Qərar"a "vətəndaşın fərdi identifikasiya nömrəsi" sözlərindən sonra "(əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i" sözləri əlavə edilsin.

**5.** Həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə – "İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında Qərar"a "vətəndaşın fərdi identifikasiya nömrəsi" sözlərindən sonra "(əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, fiziki şəxs işlədiyi halda iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli 1754 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570; 2020, № 4, maddə 402; 2022, № 2, maddə 95, № 8, maddə 846; 2023, № 8 (I kitab), maddə 1148) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq verilən dövlət zəmanəti və faiz subsidiyası 2028-ci il yanvarın 1-dək dövlət zəmanəti verilərək bağlanılmış bütün kredit müqavilələrinə şamil edilir.”;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”na aşağıdakı məzmunda 6.1-1 – 6.1-4-cü bəndlər əlavə edilsin:

“6.1-1. “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli 1754 nömrəli Fərmanına əsasən ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə, müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına verilən və aşağıdakı tələblərə cavab verən kreditlərə bu Qaydanın 6.1-2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada dövlət zəmanəti və Azərbaycan Respublikasının dövlət büdcəsindən bunun üçün Agentliyə ayrılmış vəsait hesabına faiz subsidiyası verilir:

6.1-1.1. hər bir layihə üzrə kreditin məbləği 3 000 000 (üç milyon) manatdan çox olmamalı;

6.1-1.2. müasir suvarma sistemlərinin alıcıları tərəfindən həmin sistemlərin qiymətləndirmə nəticəsində müəyyən olunan satış dəyərinin minimum 20 faizi həcmində ilkin ödəniş edilməli;

6.1-1.3. kreditin illik faiz dərəcəsi 15 faizdən yuxarı olmamalı;

6.1-1.4. kreditin müddəti 5 (beş) ildən çox olmamalı;

6.1-1.5. kredit üzrə güzəşt müddəti müasir suvarma sistemlərinin alınması, quraşdırılması, ərzaqlıq buğda əkini, yığımı və satışı üçün bazarda tələb olunan müddətlərə uyğun olmalı, lakin 12 (on iki) aydan çox olmamalıdır.

6.1-2. Bu Qaydanın 6.1-1-ci bəndinə uyğun olaraq verilmiş kreditlərə ümumi kredit məbləğinin aşağıda müəyyən olunmuş həddində dövlət zəmanəti verilir:

6.1-2.1. illik faiz dərəcəsi 14,01 faizdən 15 faizədək olduqda – 30 faiz;

6.1-2.2. illik faiz dərəcəsi 13,01 faizdən 14 faizədək olduqda – 40 faiz;

6.1-2.3. illik faiz dərəcəsi 12,01 faizdən 13 faizədək olduqda – 50 faiz;

6.1-2.4. illik faiz dərəcəsi 12 faizədək olduqda – 60 faiz.

6.1-3. Bu Qaydanın 6.1-2.1 – 6.1-2.4-cü yarımbəndlərinə uyğun olaraq verilən kreditlər üzrə sahibkarlıq subyektləri illik 5 faiz dərəcəsi ödəyir, qalıq faiz dərəcəsi isə bu Qaydanın 6.1-1.3-cü yarımbəndi nəzərə alınmaqla dövlət büdcəsindən Agentliyə ayrılmış vəsait hesabına ödənilir.

6.1-4. Bu Qaydanın 6.1-1-ci və 6.1-2-ci bəndlərinə uyğun olaraq verilmiş kreditin illik faiz dərəcəsinin subsidiyalaşdırılan hissəsi dövlət büdcəsindən bu məqsədlərlə ayrılmış vəsait hesabına Agentlik tərəfindən rübdə 1 (bir) dəfədən az olmamaqla kredit təşkilatına ödənilir. Kreditin əsas məbləğinin ödəniş qrafiki mövsümilik amili əsasında sahibkarlıq subyektinin dövriyyəsi və ərzaqlıq buğda istehsalı nəticəsində satışdan daxilolmalar nəzərə alınmaqla müəyyən olunur.”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifləri əsasında yerli istehsal məhsulu olan müasir suvarma sistemlərinin satışı zamanı tətbiq edilən dövlət güzəştlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq, sahibkarlıq subyektlərinə veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yerli istehsal məhsulu olan müasir suvarma sistemlərinin yerli istehsala aid olmasına dair meyarları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 noyabr 2023-cü il**

## “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan–Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş”in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il oktyabrın 31-də Moskva şəhərində imzalanmış “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan–Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 noyabr 2023-cü il**

## Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On səkkiz kilometr uzunluğu olan Bərdə–Ağdam (40 km)–Əsgəran avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 noyabr 2023-cü il**

# İqtisadi Şuranın və İnvestisiya Holdinqi Müşahidə Şurasının birgə iclası



**Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən birgə iclasın gündəliyində AİH-nin idarəetməsinə verilmiş Portfel şirkətlərinin 2023-cü ilin 9 ayının yekunları üzrə Fəaliyyət Hesabatı, o cümlədən maliyyə, kommersiya, investisiya və əməliyyat göstəricilərinə dair əsas nəticələr, “Azərbaycan Hava Yolları” və “Azərbaycan Dəmir Yolları” QSC-lərin borc öhdəliklərinin tənzimlənməsinə dair təkliflər, sığorta və rabitə sektoru ilə bağlı cari məsələlər ətraflı müzakirə olunub.

İclasda rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub, Maliyyə və Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinə, Mərkəzi Banka və AİH-nin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

***XQ***

## “Gənc istedadların “Qızıl kitab”ı və xüsusi təqaüdü haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Gənc istedadların “Qızıl kitab”ı və xüsusi təqaüdü haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Prezidentinin**
**2023-cü il 30 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

## Gənc istedadların “Qızıl kitab”ı və xüsusi təqaüdü haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və Azərbaycanın gənc istedadlarının adlarının “Qızıl kitab”a (bundan sonra - Qızıl kitab) yazılması və adları Qızıl kitaba yazılmış gənc istedadlar üçün xüsusi təqaüdün (bundan sonra – təqaüd) verilməsi, habelə dayandırılması qaydalarını müəyyən edir.

1.2. Qızıl kitab və təqaüd mədəniyyət sahəsində (bundan sonra – müvafiq sahə) xüsusi qabiliyyəti olan 10 yaşdan 25 yaşadək Azərbaycan Respublikasının vətəndaşlarına (bundan sonra – şəxs) Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün dövlət qayğısını təmin etmək məqsədilə təsis olunmuşdur.

1.3. Təqaüdün məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

1.4. Təqaüdün verilməsi Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti hesabına maliyyələşdirilir.

**2. Qızıl kitab**

2.1. Qızıl kitab müvafiq sahə üzrə xüsusi qabiliyyəti olan şəxslərin ictimaiyyətə tanıdılması və onların həvəsləndirilməsi məqsədilə həmin şəxslərin adlarının daxil edilməsinin xronoloji ardıcıllığı əsasında bir nüsxədə tərtib edilən irihəcmli nəşrdir.

2.2. Qızıl kitaba aşağıdakı şəxslərin adları daxil edilir:

2.2.1. müvafiq sahə üzrə beynəlxalq və ya ölkə əhəmiyyətli müsabiqə, yarış və ya festivalların laureatı olan şəxslərin;

2.2.2. müvafiq sahə üzrə təhsildə yüksək nəticələr əldə edən şəxslərin.

2.3. Şəxsin adı Qızıl kitaba Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və ya Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) təqdimatı əsasında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə daxil edilir.

2.4. Nazirliyin təqdimatı əsasında şəxsin adının Qızıl kitaba daxil edilməsi və ona təqaüdün verilməsi bu Əsasnamənin 3-cü və 4-cü hissələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

2.5. Qızıl kitaba adı yazılmış şəxs qəsdən ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda, onun adı Qızıl kitabdan Nazirliyin təqdimatı əsasında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə çıxarılır.

2.6. Qızıl kitab Nazirlikdə daim qorunub saxlanılır.

2.7. Qızıl kitabın elektron nüsxəsi Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.

**3. Namizədlərin irəli sürülməsi**

3.1. Şəxsin adının Qızıl kitaba yazılması və ona təqaüdün verilməsi ilə bağlı müraciət aşağıdakı sənədlər əlavə edilməklə, namizədin təhsil aldığı təhsil müəssisəsi və ya işlədiyi dövlət orqanı (qurumu) (bundan sonra – müraciətçi) tərəfindən Nazirliyə təqdim edilir:

3.1.1. namizədin şəxsiyyətini təsdiq edən sənədin surəti;

3.1.2. namizədin təhsili haqqında sənədin (olduğu halda) surəti;

3.1.3. namizəd təhsil aldıqda, təhsil alması barədə müvafiq təhsil müəssisəsindən arayış;

3.1.4. namizədin tərcümeyi-halı;

3.1.5. namizədin xasiyyətnaməsi;

3.1.6. namizədliyin irəli sürülməsinə əsas verən nailiyyətləri təsdiq edən sənədlərin surəti.

3.2. Bu Əsasnamənin 3.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanlarından (qurumlarından) əldə edilməsi mümkün olduqda, həmin sənədlər müraciətçidən tələb olunmur. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanlarından (qurumlarından) tələb olunur və ya müraciətçi tərəfindən təmin edilir.

3.3. Bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən sənədlər tam təqdim olunmadıqda və ya təqdim olunmuş sənədlərdə uyğunsuzluq aşkar edildikdə (bu Əsasnamənin 3.2-ci bəndinin tələbləri nəzərə alınmaqla), Nazirlik sənədlər təqdim edildikdən 3 (üç) iş günü müddətində bu barədə yazılı və ya elektron qaydada müraciətçini məlumatlandırır. Müraciətçi bu Əsasnamənin 3.8-ci bəndində qeyd edilmiş iclasın keçirilməsinə azı 10 (on) iş günü qalanadək uyğunsuzluqların aradan qaldırılmasını və çatışmayan sənədlərin təqdim olunmasını təmin etməlidir.

3.4. Sənədlərdə aşkar olunmuş çatışmazlıqlar müraciətçi tərəfindən bu Əsasnamənin 3.3-cü bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, namizədin qiymətləndirilməyə buraxılmasından imtina olunması barədə qərar qəbul edilir və 3 (üç) iş günü müddətində bu barədə yazılı və ya elektron qaydada müraciətçiyə məlumat göndərilir.

3.5. Təqdim edilmiş sənədlər bu Əsasnamənin tələblərinə uyğun olduqda, namizəd qiymətləndirilmə üzrə namizədlərin siyahısına (bundan sonra – namizədlərin siyahısı) daxil edilir və 3 (üç) iş günü müddətində bu barədə yazılı və ya elektron qaydada müraciətçiyə məlumat göndərilir.

3.6. Təqdim edilmiş namizədlərin bu Əsasnamənin 2.2-ci bəndinin tələblərinə uyğunluğunun qiymətləndirilməsini və seçimini, eləcə də bu Əsasnamənin 4.4-cü bəndində nəzərdə tutulmuş hallarla bağlı qiymətləndirilməni təşkil etmək məqsədilə Nazirlik tərəfindən 9 üzvdən ibarət tərkibdə Ekspert Komissiyası yaradılır. Ekspert Komissiyasının tərkibini və fəaliyyəti barədə reqlamenti Nazirlik təsdiq edir.

3.7. Nazirlik namizədlərin və bu Əsasnamənin 4.4-cü bəndində nəzərdə tutulmuş hallarla bağlı qiymətləndiriləcək şəxslərin siyahısını ümumiləşdirir, baxılması üçün iclasın keçirilməsinə 5 (beş) iş günü qalanadək Ekspert Komissiyasına təqdim edir.

3.8. Ekspert Komissiyasının iclaslarının keçirilmə tarixini Nazirlik müəyyən edir və bu barədə məlumatı Nazirliyin rəsmi internet səhifəsində yerləşdirir.

3.9. Ekspert Komissiyası qərarları açıq səsvermə yolu ilə, üzvlərinin sadə səs çoxluğu ilə qəbul edir.

3.10. Ekspert Komissiyası namizədlərin seçilməsi barədə əsaslandırılmış qərarını və Azərbaycan Respublikasının Prezidentinə təqdim olunacaq namizədlərin siyahısını Nazirliyə təqdim edir.

3.11. Nazirlik Ekspert Komissiyasının qərarı ilə təsdiq edilmiş namizədlərin siyahısını, hər bir namizədin bu Əsasnamənin 2.2-ci bəndində göstərilən tələblərə uyğunluğu barədə arayışı təqdimatla birgə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

**4. Təqaüdün verilməsi şərtləri**

4.1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Qızıl kitaba adları yazılmış şəxslərin hər birinə təqaüd verilir.

4.2. Təqaüd şəxsə onun adı Qızıl kitaba yazıldığı tarixdən hər dəfə 3 (üç) il müddətinə təyin edilməklə, 25 yaşına çatanadək aylıq verilir.

4.3. Bu Əsasnamənin 4.2-ci bəndində göstərilən yaş həddi nəzərə alınmaqla, 3 (üç) illik müddət başa çatdıqdan sonra şəxsin müvafiq sahə üzrə təhsilini və ya fəaliyyətini davam etdirməsi bu Əsasnamənin 4.4-cü bəndində nəzərdə tutulmuş qaydada qiymətləndirildikdən sonra, ona növbəti 3 (üç) il müddətinə təqaüd təyin edilir.

4.4. Şəxsin müvafiq sahə üzrə təhsilini və ya fəaliyyətini davam etdirməsinin qiymətləndirilməsi bu Əsasnamənin 3-cü hissəsi ilə müəyyən edilmiş qaydada Ekspert Komissiyası tərəfindən əvvəlki təqaüdün müddətinin bitməsinə ən geci 1 (bir) ay qalmış həyata keçirilir.

4.5. Təqaüdün verilməsinin davam etdirilməsi və ya bu Əsasnamənin 5.1-ci bəndində müəyyən olunmuş hallarda dayandırılması haqqında qərar Nazirlik tərəfindən qəbul edilir.

**5. Təqaüdün verilməsinin dayandırılması halları**

5.1. Şəxsə təyin edilmiş təqaüdün verilməsi aşağıdakı hallarda dayandırılır:

5.1.1. şəxs müvafiq sahə üzrə təhsilini və ya fəaliyyətini davam etdirmədikdə;

5.1.2. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə;

5.1.3. şəxsin 25 yaşı tamam olduqda;

5.1.4. şəxsin adı Qızıl kitabdan çıxarıldıqda;

5.1.5. şəxs vəfat etdikdə.

**6. Yekun müddəalar**

6.1. Təqaüd hər ayın 5-dək, təqaüdçünün adına açılmış xüsusi bank hesabına köçürülür.

6.2. Bu Əsasnamənin 6.1-ci bəndindən irəli gələn zəruri təşkilati tədbirlər Nazirlik tərəfindən həyata keçirilir.

6.3. Bu Əsasnamənin 4.2-ci – 4.4-cü bəndlərinin və 5.1.1-ci yarımbəndinin tələbləri bu Əsasnamə qüvvəyə mindiyi günədək təqaüd təyin edilən şəxslərə münasibətdə bu Əsasnamə qüvvəyə mindikdən 3 (üç) il sonra tətbiq edilir.

# Vergi islahatları iqtisadi yüksəlişə meydan açıb

## 10 ayda büdcəyə istehsal sferasından 14 milyard 593,5 milyon manat vəsait köçürülüb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) məlumatında bildirilir ki, son illərdə ölkədə tətbiq edilən vergi güzəştləri və sosial sığorta üzrə fərqli rejim bu sahədə şəffaflaşmanı gerçəkləşdirib.**



Bu istiqamətdə həyata keçirilən islahatlar qeyri-neft sektorunun özəl bölməsində münasibətlərin şəffaflaşmasına, sahibkarların yükünün azaldılmasına, daimi iş yerlərinin və sosial təminatı olan işçi qüvvəsinin yaradılmasına müsbət təsir göstərib. Nəticədə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə daxilolmaların artımı nəzərə çarpıb.

Ölkədə sahibkar-dövlət münasibətlərində etimad da getdikcə güclənir. Bu isə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsində müsbət dinamika ilə müşahidə olunur. Son vaxtlar aparılan inzibatçılıq və qanunvericilik islahatları isə vergi öhdəliklərinə əməletmənin asanlaşmasını şərtləndirir, eyni zamanda, qeyri-neft sektoru üzrə büdcəyə vergi daxilolmalarının artım tempi qeyri-neft ÜDM-in artım tempini üstələyir.

Ümumiyyətlə, hazırda sosial-iqtisadi sahələrdə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir. İqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, “kölgə iqtisadiyyatı”-nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, intizamlı biznes üçün mühitin təmin edilməsi vergi siyasətinin əsas istiqamətləridir.

Məhz bunun nəticəsidir ki, son bir neçə ildə biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, əgər 2018-ci ilə, yəni vergi sistemində “yeni keyfiyyət başlanğıcı” adlandırılan dövrün əvvəlinə qayıtsaq, istər vergi sistemində, istərsə də biznes-dövlət münasibətlərində böyük dəyişikliklər qeydə alınıb.

Yeri gəlmişkən, 2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib. Başqa sözlə, 2002-ci illə müqayisədə vergi daxilolmalarında artım 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan isə daxilolmalar 23,4 dəfəyədək artıb. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalar son 20 il ərzində 35,8 dəfə yüksəlib. Vergi daxilolmalarının əhəmiyyətli artımı ölkəmizin maliyyə imkanlarının genişlənməsinə mühüm dəstək olub.

Son illər ərzində vergi sistemində həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində sahənin maddi-texniki bazası müasirləşdirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub, biznes mühiti münbitləşib. Nəticədə vergi daxilolmalarının davamlı artımına nail olunub. Məsələn, DVX-nin məlumatına əsasən, 2002-ci ildən indiyədək vergi daxilolmaları 23 dəfə artıb. Cari ilin yanvar-sentyabr aylarında isə toplanan vergi daxilolmaları 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz yüksələrək 12 milyard 810 milyon manat təşkil edib.

Azərbaycanda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət–müəyyənləşdirilən hədəfə nail olmaq üçün dövlət tərəfindən dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsində qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlərə nail olunur.

Son illərdə bütün bu istiqamətlərdə gerçəkləşdirilən təşəbbüslər ölkəmizin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırıb, sahibkarlıq sahəsində sürətli inkişafın davamlılığını təmin edib və rəqabət qabiliyyətini möhkəmləndirib, eyni zamanda, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırıb.

Azərbaycanda hazırda “kölgə iqtisadiyyatı”nın azaldılması məqsədilə vergi qanunvericiliyində dəyişikliklər edilməklə yanaşı, vergi inzibatçılığında da mütəmadi olaraq təkmilləşdirmələr aparılır. Bu, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsini, vergiödəyicilərinə xidmətlər çeşidinin artırılmasını və özəl bölmədə biznesin fəaliyyətinə səmərəli şəraitin yaradılması şərtləndirir.

Vergi orqanları tərəfindən ictimai əməkdaşlıq nöqteyi-nəzərindən bir sıra əhəmiyyətli tədbirlər platforması da yaradılıb. Sahibkarlar, onların ictimai birlikləri, assosiasiyalar və ekspert cəmiyyəti ilə mütəmadi görüşlər çərçivəsində qarşılıqlı əlaqələr genişləndirilib. Bu görüşlərdə səsləndirilən bir çox rasional təkliflərin reallaşdırılması ilə biznes mühiti daha da təkmilləşdirilib. Bununla da sahibkarlıq fəaliyyətini təşviq edən alətlər artıb, Vergi Məcəlləsində müxtəlif dəyişikliklər edilib və fiskal maraqlar iqtisadi inkişafla uzlaşdırılıb.

DVX-nin məlumatına görə, həyata keçirilən tədbirlərin nəticəsində 2023-cü ilin yanvar-oktyabr aylarında DVX-nin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artaraq 14 milyard 593,5 milyon manat olub. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,2 faiz artaraq 8 milyard 387,4 milyon manat təşkil edib.

İqtisadiyyatın bütün sahələrində dövlət-özəl sektor tərəfdaşlığının genişləndirilməsi və özəl sektorun iqtisadi inkişafda rolunun artırılması sahəsində həyata keçirilən tədbirlər, o cümlədən qabaqcıl təcrübəyə əsaslanan yeni qanunun qəbul edilməsi də vergi daxilolmasına mühüm təsir göstərib. Qanunun tətbiqi ilə ölkə iqtisadiyyatında investisiya fəallığının həm dinamikası, həm də keyfiyyətində yeni bir səhifə açılıb. Bu gün dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində innovativ və prioritet layihələrin reallaşdırılmasına başlanılıb.

Qarşıdakı dövrdə də vergi siyasətinin, ilk növbədə, iqtisadi təşviq, səmərəli nəzarət, rəqəmsallaşma prinsipləri əsasında həyata keçirilməsi nəzərdə tutulub. Bundan başqa, iqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi, “kölgə iqtisadiyyatı” ilə sistemli mübarizənin miqyasının genişləndiriləcəyi planlaşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

**Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” qaz kondensat yatağından çıxarılan qazı Türkiyə və Avropa istehlakçılarına çatdıran Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə cari il noyabrın sonunadək təqribən 55 milyard kubmetr qaz ötürülüb. Bu barədə Energetika Nazirliyindən məlumat verilib.**

## TANAP vasitəsilə 55 milyard kubmetr qaz nəql olunub




Bildirilib ki, 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Xatırladaq ki, Cənub Qaz Dəhlizinin əsas seqmenti sayılan 1850 kilometrlik TANAP Türkiyə ərazisindən keçərək Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz-2” kondensat yatağından çıxarılan qazı Türkiyə və Avropa istehlakçılarına çatdırır. Maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetr olan TANAP Türkiyə–Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə–Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşir.

## “Çıraq” platformasından 104 milyon ton neft çıxarılıb

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Dərinsulu Günəşli” (AÇG) yataqlar blokunda yerləşən “Çıraq” platforması istismara veriləndən indiyədək burada 104 milyon tondan artıq neft və 24 milyard kubmetrə yaxın qaz hasil olunub. Energetika Nazirliyindən XQ-yə bildirilib ki, platformadan 2023-cü ilin birinci yarısı üçün ümumi hasilat gündə orta hesabla 23 min barel təşkil edib.**



Qeyd edək ki, AÇG blokundan ilk neft 1997-ci ilin noyabrında “Çıraq” yatağından əldə edilib. Bakıdan təxminən 100 kilometr şərqdə yerləşən “Azəri-Çıraq-Dərinsulu Günəşli” Xəzər dənizinin Azərbaycan sektorunda ən iri neft-qaz yataqlar bloku hesab olunur. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanan zaman buradakı ehtiyatlar 511 milyon ton həcmində təxmin edilirdisə, sonradan bu göstərici 1 milyard 72 milyon ton proqnozlaşdırılıb.

## Magistral qaz kəmərləri 9 ayda ölkəmizə 1,9 milyard manat qazandırıb

**2023-cü ilin yanvar–sentyabr aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə nəqletmədən əldə etdiyi gəlirləri 1 milyard 891 milyon 727,3 min manat təşkil edib. Bu da illik müqayisədə 10,9 faiz artım deməkdir.**

Dövlət Statistika Komitəsindən XQ-yə verilən məlumata görə, 2022-ci ilin müvafiq dövründə bu göstərici 1 milyard 706 milyon 401,5 min manat səviyyəsində olub.



Qeyd edək ki, cari ilin yanvar-sentyabr aylarında Azərbaycanda magistral qaz kəmərləri ilə 29 milyard 430,7 milyon kubmetr qaz nəql edilib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,3 faiz çoxdur.

***XQ***

# Azərbaycan meyvə-tərəvəzinə xarici bazarda tələbat artır

## *Dünya Bankı ölkəmizdə bu sahədə böyük imkanların olduğunu bildirir*

**Tərəvəzçilik Azərbaycanda kənd təsərrüfatının ənənəvi sahələrindən sayılır. Ölkəmizdə bu sahəyə maraq həmişə yüksək olub. Bu da təsadüfi deyil. Çünki tərəvəz məhsullarının yetişdirilməsi mövsümi xarakter daşıdığından əkin-biçin adamı zəhmətinin bəhrəsini qısa müddətdə görür, necə deyərlər, gəlirini-çıxarını yaxşı hesablaya bilir.**



Tərəvəzçilik, həm də yüksək gəlir gətirən bir sahədir. Yetər ki, əziyyətə qatlaşıb torpağa basdırdığın hər bir şitilin nazını çəkib nəvazişini, istədiyi qulluğu ondan əsirgəməyəsən. Daha dəqiq desək, əgər sahələrdə lazımi aqrotexniki tədbirləri vaxtlı-vaxtında görə bilsən, o da sənə borclu qalmaz, mövsümün sonunda üzünü güldürər.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda 10 milyard 865,5 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Ümumi istehsalın 5 milyard 731 milyon manatı bitkiçilik məhsullarının payına düşüb. Hesabat dövründə bitkiçilik məhsullarının istehsalı əvvəlki ilin eyni dövrünün göstəricisini 2,7 faiz üstələyib.

Son illər ölkəmizdə mühüm növ bitkiçilik məhsullarından sayılan tərəvəzin yetişdirilməsinə marağın getdikcə artması səbəbindən əkin sahələrinin genişlənməsi müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il mövsümün əvvəlindən Azərbaycanda, ümumilikdə, 61 min 179 hektar sahədə tərəvəz əkilib. Əkin sahələrinin 17 min 754, 9 hektarı pomidorun, 11 min 28,8 hektarı soğanın, 9 min 645 hektarı xiyarın, 4 min 364 hektarı badımcanın, 3 min 597,3 hektarı kələm və gül kələminin, 2 min 355,5 hektarı şirin bibərin, 1060,7 hektarı isə acı bibərin payına düşüb. Bundan əlavə, mövsüm ərzində 2073,2 hektar sahədə sarımsaq, 935,1 hektar sahədə balqabaq, 980,3 hektar sahədə süfrə yerkökü, 674,9 hektar sahədə turp, 645,8 hektar sahədə süfrə çuğunduru, 431 hektar sahədə isə göy noxud əkilib.

Cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə 60 min 179,5 hektar tərəvəz sahəsində yığım həyata keçirilib. Həmin sahələrdən isə 1 milyon 694 min 660 ton məhsul yığılıb. Hesabat dövründə tərəvəz sahələri üzrə hektarın məhsuldarlığı 281,6 sentner təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23,2 sentner çoxdur. Tərəvəzçilikdə ən yüksək göstəricilərə isə Qazax–Tovuz (387 min 993,8 ton) və Qarabağ (232 min 640,7 ton) iqtisadi rayonlarının fermerləri imza atıblar.

Ölkə tərəvəzçiləri daxili bazarda məhsul bolluğu yaratmaqla yanaşı, ixracın strukturunun genişləndirilməsinə mühüm töhfələr verirlər. Elə 2023-cü ilin 9 ayında Azərbaycandan xaricə 470 milyon 390 min dollar dəyərində 462 min 613 ton meyvə-tərəvəzin ixrac edilməsi də bunu təsdiqləyir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 31 milyon 329 min dollar və ya 7,1 faiz, həcmi isə 48 min 837 ton və ya 11,8 faiz artıb. Hesabat dövründə meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 1,78 faiz, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 19,32 faiz təşkil edib.

Məlum olduğu kimi, tərəvəzçiliyin inkişafında iri fermer təsərrüfatları ilə yanaşı, həyətyanı sahələrində məhsul yetişdirən şəxslər də mühüm rol oynayırlar. Bununla belə, iri fermer təsərrüfatlarında daha bol məhsul əldə etmək mümkündür. Hazırda ölkəmizdə tərəvəzçiliyin inkişafında istixanaların da rolu əvəzsizdir. Məhz istixana sahiblərinin əməyinin nəticəsidir ki, əhali ilin soyuq fəsillərində belə, dükan-bazardan təzə tərəvəz ala bilir.

Azərbaycanda tərəvəz istehsalını daha dayanıqlı etmək üçün isə, təqribən, 9 min 800 hektar sahədə istixanaların təkmilləşdirilməsinə 3,81 milyard ABŞ dolları investisiya yatırılması tələb edilir. Bununla bağlı məlumat Dünya Bankı Qrupunun açıqladığı Azərbaycana dair “İqlim və İnkişaf Hesabatı”nda yer alıb. Bildirilir ki, 0,5 milyon hektar ərazidə tətbiq edilən (buğda, qarğıdalı, pambıq və tərəvəz üçün) mühafizə xarakterli kənd təsərrüfatı (minimum əkin) texnologiyasının mənimsənilməsinə isə nisbətən az – 10,1 milyon dollar investisiya yatırmaq lazımdır.

Sənəddə qeyd olunur ki, nəmi qoruyan bu texnologiya torpaqların eroziyasını azalda, eləcə də əkin sahələrinin strukturunu və məhsuldarlığını yaxşılaşdıra bilər. Hesabat müəlliflərinin fikrincə, bilik mübadiləsinə və təlimlərə daha çox investisiyaların yatırılması da tələb olunacaq. İqlimə dözümlü kənd təsərrüfatına uyğunlaşdırma məqsədilə yatırılan investisiyaların onları əvəzləyən iqtisadi faydaları var və buna görə də uyğunlaşdırma texnologiyalarının və tədbirlərinin maliyyələşdirilməsi üçün həm dövlət sektorunun, həm də özəl sektorun investisiyaları tələb olunur.

“Subsidiyalara dövlət investisiyaları və yaxud stimulları investisiya xərclərinin 30-40 faizini təşkil edə bilər və əsasən, maliyyəyə çıxışı məhdud olan, uyğunlaşdırma texnologiyalarını və tədbirlərini mənimsəmək üçün potensialı zəif olan kiçik təsərrüfat sahiblərinə dəstək göstərilməsinə yönələ bilər. Hazırkı təsərrüfatların genişləndirilməsi xidməti fermerlərə təlim və texniki yardım vasitəsilə yeni biliklər öyrədilməsini, yeni texnologiyaların və idarəetmə təcrübələrinin mənimsənilməsi prosesinin sadələşdirilməsini tələb edəcək”, – deyə hesabatda bildirilir.

Yeri gəlmişkən, bitkiçilikdə məhsuldarlığın yüksək olması toxumdan başlayır. Məhz bu səbəbdən ölkədə toxumçuluğun daha da inkişaf etdirilməsinə ciddi ehtiyac var. Ekspertlər hesab edirlər ki, hazırda ölkədə kiçik təsərrüfatlar əksər hallarda bazarlarda satılan təsadüfi toxumlara müraciət edir, toxumları kiminsə tövsiyəsi ilə alırlar. Nəticədə isə, lazımi məhsuldarlığa nail ola bilmirlər. Hazırda Azərbaycanda kifayət qədər toxum istehsal olunmadığından tələbatın müəyyən hissəsi idxal hesabına ödənilir. Bu isə milyonlarla manat vəsait deməkdir.

3 il əvvəl paytaxtın Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun və “Kartof və tərəvəz toxumları istehsalı” kompleksinin açılışı ölkəmizdə kənd təsərrüfatı sahəsində səmərəliliyin artırılması ilə yanaşı, tərəvəzçiliyin inkişafına da mühüm töhfə verəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Minsk vaxtı ilə...

## Belarus paytaxtında nələri gördüm, eşitdim və oxudum...

**Bu dörd-beş gündə mən slavyan mədəniyyətinin əsas mərkəzlərindən olan Minskdə dünənlə bu günün əl-ələ verib getməsinin də şahidi oldum, bu günlə gələcəyin biri-birinə əl uzatmasının da. Əvvəllər bu şəhərdə olmadığıma görə, "sürətli inkişafdan" danışa bilmərəm. Çünki dünən buralar necə olubsa, görməmişdim. Ancaq onu deyə bilərəm ki, Belarus paytaxtının bugünkü siması heyrətamizdir. Məni buradakı kitabxanaların sayı da mat qoydu, "Belkniqa"nın qəbələlilər demiş, "tala boyda" mağazasındakı "izdiham" da. Dövlət Milli Kitabxanasının ən müasir memarlıq üslubunda tikilmiş binasının gündüz görünüşü xalqın bu günü, işıq effektlərinin gecə yaratdığı möcüzəyə bənzər füsunkarlıq isə sabahı haqqında təsəvvür yaradır. Bu, ayrıca bir yazının mövzusudur.**



### "O gələn kimdir?"

"Belkniqa"da nabələd olduğumu görən (bu şəhərdə əcnəbilərin kimliyi ilə ancaq yaşı 60-dan çox olanlar maraqlanırlar və bunun da əsas səbəbi nostalgiyadır) ahıl yaşlı Slavik haralı olduğumu öyrənmək istədi. Azərbaycanlı olduğumu biləndə dedi ki, bizim Yanka Kupalanın yüz il əvvəl yazdığı, sonralar 100 dilə tərcümə edilmiş "O gələn kimdir?" şeiri bir kitab kimi sizin ölkənin baş kitabxanasına da hədiyyə edilib: "Sən bilirsənmi çoxsaylı xalqların tərcüməçiləri o kitabı nə üçün öz ana dillərinə çeviriblər? Bilirsənmi o şeirin əsas ideyası nə idi?" Doğrusu, Yanka Kupala haqqında çox eşidib, oxusam da, həmin şeir haqqında nə isə xatırlaya bilmədim və susdum. Amma ağsaqqal məni sındırmamaq üçün Səməd Vurğunun və Süleyman Rüstəmin belarus yazıçıları ilə dostluğundan danışdı.

Axşam otelə gələn kimi, "WhatsApp"-la "Bakıdan xahiş etdim ki, həmin şeir və kitab haqqında mənə məlumat verilsin. Verildi. Məlum oldu ki, beş-altı il qabaq AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (qoca belarusun akademiya kitabxanasını Azərbaycanın baş kitabxanası adlandırması da maraqlı idi) Yanka Kupalanın "O gələn kimdir?" kitabı hədiyyə edilib. Rəsul Rzanın tərcüməsində həmin şeir belə səslənir:

*Bataqlıqdan, meşədən keçib hər səhər, axşam,*
*də kimdir, hara gedir, nəçidir bu izdiham?!*
*– Belarusdur, yaxşı bax!*
*– Əsrin şikəst etdiyi bu kor, bu kar kəslərin*
*İndi nədir istəyi?! Bir cavab verin!*
*– Adam olmaqdır ancaq...*

Öz xalqının ağrı-acılarını, təxminən, bir əsr əvvəl dilə gətirmiş şairin ruhu, yəqin ki, bu gün şaddır.

### Minskdə Astana "havası"

Belarus hidrometeoroloqları hələ ayın 21-dən xəbərdarlıq edirdilər ki, iki gün sonra Minskdə qar yağacaq. Ayın 23-də, həqiqətən də, "Bəyaz Rusiya"nı bəyaz qar örtmüşdü. Fevraldan bəri ən soyuq gün olan həmin tarix Belarus paytaxtının ən qaynar günlərindən biri kimi də tarixə düşdü. Çünki noyabrın 23-də KTMT üzvü olan ölkələrin dövlət başçılarının hamısı bu qurumun Minsk Sammitinə toplaşmışdı. Dəqiq bilirəm ki, buradakı "hamısı" ifadəsini görən tələskən oxucu etiraz edəcək ki, o tədbirdə Ermənistan rəhbərliyi iştirak etməyib. Ancaq "hamısı" ifadəsini ona görə yazıram ki, Ermənistanın dövlət olmadığını bu ölkənin rəhbərliyi kimi mən də etiraf edirəm. Qərəz...

Oteldə mənə təqdim edilən "Беларусь сегодня" qəzetinin şənbə sayında verilmiş "Qar-borana baxmayaraq" adlı analitik məqalədə qeyd olunurdu ki, Ermənistanı bu sammitdə "quru bayraq" təmsil edirdi: "Buna baxmayaraq, sammitin rəhbərliyi bəyan etdi ki, toplantının qəbul edəcəyi qərarlar Ermənistanın iştirakı olmadan da legitimdir".

Bundan başqa. Məqalənin müəllifləri (Polina Konoqa və Dmitri Kryat) yazırdılar ki, ağ örpəklə örtülmüş hava limanında qırmızı xalçalar üzərində gedən Tacikistan Prezidenti Emomali Rahmonun dediyi "Aleksandr Qriqoryeviç bu havanı məxsusi olaraq təşkil etmişdir. Əsl Düşənbə havasıdır"– ifadəsinə münasibət bildirən Qasım – Comart Tokayevin replikası da maraqlı olmuşdur: "Yox, bu, əsl Astana havasıdır!"

KTMT-nin Minsk Sammitinin qəbul etdiyi qərarların əsl "Astana havası" olduğunu bu qurumun baş katibi, digər qazax siyasətçisi İmanqali Tasmaqambetov daha yaxşı təsdiq etmişdir. "Sputnik Belarus" noyabrın 23-də yazdı ki, KTMT-nin Minsk Sammitinin qərarları tədbir başa çatandan sonra Tasmaqambetov tərəfindən İrəvana göndəriləcək və əvvəlki razılaşmaya görə Ermənistan rəhbərliyi də həmin qərarları qəbul edəcək. Yəni Ermənistan rəhbərliyi bu məsələdə də "başqasının havasına" oynayacaq.

### Minsk "göz yaşlarına inanır"

Minskin mərkəzində, daha doğrusu, şəhərin qədim ərazisində bütün turistlərin gözünü yaşardan bir ünvan var. Burada, Svisloç çayında yaradılmış süni adaya rəsmi olaraq "Mərdlik və kədər adası" adı verilsə də, bu ünvan turistlərə "Göz yaşları adası" kimi təqdim olunur. Bu məkan Əfqanıstan müharibəsində həlak olmuş belarus əsgərlərinin xatirəsini əbədiləşdirmək üçün yaradılmışdır.

Yaşadığım otel həmin çayın sahili boyu uzanan "Qalibləр prospekti" ilə "Qəsr" küçəsinin kəsişməsində yerləşdiyinə, yəni adanın çox yaxınlığında olduğuna görə oraya bir neçə dəfə getdim. Həqiqətən kədəri ifadə edə bilən bir forma tapıblar. Bələdçi olmadığına görə sakinlərdən biri ilə söhbət elədim. Dedi ki, lüzumsuz yerə aparılan Əfqanıstan müharibəsi yüzlərlə belarus gəncin həyatını əlindən almışdı. Onsuz da bu ölkə yüz illər boyu məhz öz ərazisində apardığı çoxsaylı müharibələrdə daim itkilər vermişdir. Həmsöhbətim xatırlatdı ki, Əfqanıstan müharibəsində otuz mindən çox belarus əsgəri iştirak etmişdir. Ölkənin istənilən şəhərində "əfqan döyüşçüləri"nin xatirəsini əbədiləşdirən abidələr yaradılmışdır. "Göz yaşları" adası isə onların arasında ən çox turist cəlb edənidir. Ancaq bu ünvan hər il fevralın 15-də – Sovet qoşunlarının Əfqanıstandan çıxarıldığı günün ildönümündə daha izdihamlı olur. Həmsöhbətim danışdı ki, həmin gün Belarusun hər yerindəki indi yaşayan "əfqan döyüşçüləri"bura gələrək, keçmiş silahdaşlarının xatirəsini yad edirlər.

### "Qələbə meydanı"nda qələbəlikdir

Biz hava limanından şəhərə gələndə gecədən xeyli keçmişdi. Bakı vaxtı ilə saat üçə az qalırdı. Amma, buna baxmayaraq, "Qələbə meydanı"nda xeyli adam var idi və onlar abidənin ətrafını qardan təmizləyirdilər. Mən həm şəhərə gələndə, həm də buradan gedəndə həmin meydandan keçməli olmuşdum. Çünki eynilə bizim "Azadlıq" meydanımız kimi hava limanına gedən yolun üstündədir. Ancaq gündüz vaxtı şəkil çəkdirmək üçün bir dəfə də ora getdim. Meydan da, oradakı abidə də, həqiqətən, əzəmətlidir.

Paytaxtın Müstəqillik küçəsində – Svisloç çayı sahilində olan bu meydan 1958-ci ilədək Dairəvi meydan adlandırılmış – əbədi məşəl 1961-ci ilin yayından bəri söndürülmür. Dedilər ki, Minsk "Qəhrəman şəhər" olduğuna görə 1984-cü ildə Moskva, Leninqrad, Stalinqrad, Kiyev, Odessa, Sevastopol, Kerç, Novorossiysk, Tula və Brest qalası kimi "Qəhrəman şəhər"lərdən torpaq gətirilərək buradakı "Kapsullar postamenti"ndə əbədiləşdirilmişdir. Mən bu məlumatları dəftərçəmə qeyd edəndən sonra soruşdum ki, bəs Bakıdan nə üçün torpaq gətirməyiblər? Ətrafdakılar mənim məqsədimi başa düşmədiklərinə görə bir-birinə baxdılar və yəqin düşündülər ki, belə də savadsız jurnalist olar?

### "O rəmzlər bizim tariximizdir"

Oteldə əl ağacı ilə gəzən yaşlı bir kişiyə mənim Azərbaycandan gəlmiş jurnalist olduğumu dedilər. Maraqlandı. Söhbət eləməyi xoşlayan adam imiş. Soruşdu ki, Minskdə xoşunuza gələn nə oldu? Dedim hər şey. Bir də soruşdu ki, bəs qeyri-adi nə gördün? Dedim Lenin rayonu, Lenin, Oktyabr, Pravda, Komsomol küçələri və sair. Dedi ki, o simvolikalar bizim tariximizdir, onları necə silmək olar?

Ağsaqqal həm də əlavə etdi ki, altı-yeddi il əvvəl Minskdə "Sovet simvolikaları sərgisi" keçirilmişdi: "Orada mən də iştirak etmişdim. Həm də qürurla. Hər xalqın, hər ölkənin öz müstəqil dövləti olmalıdır. Allaha şükür ki, bunlar var. Ancaq heç kəs öz xalqının, ölkəsinin tarixini unutmamalıdır. Biz Sovet dönəmini yaşamışıq, o tarixi illəri heç zaman unutmayacağıq".

***

Otel otağımı təhvil verib məni hava limanına aparacaq taksini gözləmək üçün foyedə əyləşmişdim. Liftin qapısı açıldı və resepşiona yaxınlaşan dörd nəfərin danışığında "pardon" və "müsyö" sözlərini eşitdim. Məlum idi ki, bu qonaqlar fransızlardır. Divardakı saata baxaraq (o saatların yanında düzülmüş otuza qədər kiçik bayrağın yanında Azərbaycan bayrağı da var idi və mən hər səhər əvvəlcə inzibatçıya, sonra isə bayrağımıza salam verirdim), öz qollarındakı saatda vaxtı redaktə edirdilər. Ağlıma gələn ilk ifadə bu oldu ki, bədxahımız Parisin təmsilçiləri saatlarını dostumuz Minskin vaxtı ilə qurdular. Bəlkə də, bunun elə bir ictimai-siyasi əhəmiyyəti yox idi. Hər halda onların Qafqazdakı bacıları Minsk vaxtı ilə keçirilən tədbirdə dövlət olmadıqlarını başa düşmüşdülər.

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

**Bakı–Minsk–Bakı**

# Sərsəng Su Anbarının tilsimi qırılıb

## 31 il düşmənin iflic etdiyi bu həyat mənbəyi Qarabağ və Aran rayonlarına can verəcək



**Azərbaycanın su ehtiyatları orta hesabla 30 kubkilometrdir. Bunun 20 kubkilometri tranzit axının payına düşür, 10 kubkilometri isə sərhədlərimiz daxilində formalaşır. İşğaldan azad olunan ərazilərimizin çaylar, göllər və yeraltı sulardan ibarət su ehtiyatları, təxminən, 780 milyon hesablanır. Bu isə yerli su ehtiyatlarımızın 20 faizə qədərini təşkil edir.**

İşğal dövründə Azərbaycan Tərtərçay, Həkəriçay, Tərtərçayın qolu Levçay, Tutkunçay, Xaçınçay və digər böyük çayların su ehtiyatlarından məhrum olduğundan, əkin sahələrinin suvarılmasında, xüsusilə bitkilərin vegitasiya dövründə çətinliklər yaranırdı. Ermənilər ekoloji terror törədərək həmin çayların sularını dağətəyi ərazilərə buraxmırdılar. Bu barədə Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş elmi işçisi, coğrafiya üzrə elmlər doktoru Məhəmməd Abduyev dedi:

– Qarabağ çatlı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəklində çayları qidalandırır. Həm də xüsusilə yuxarı hissələrində meyillilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə də zəngindir. Onların suvarma sistemlərinə daxil olması əkin sahələrini suvarma suyu ilə təmin edəcək, eyni zamanda, ərazidəki Sərsəng, Suqovuşan, Xaçınçay və s. su anbarlarının ekoloji bərpa prosesinin sürətləndirəcək. Bu anbarlar arasında ən böyüyü Sərsəng Su Anbarıdır.

Anbar birinci Qarabağ Müharibəsindən əvvəl Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının böyük torpaq sahəsini suvarma suyu ilə təmin edib. Yüz minlərlə insanın yaşadığı böyük bir kənd təsərrüfatı regionu üçün əsas su təminatı olub. Qarabağın işğalından sonra isə vəziyyət tamamilə dəyişib. Separatçı rejim 31 il ərzində ondan Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə edib. Ermənilər yay mövsümündə suyu kəsib, qışda isə əksinə, buraxaraq təbii fəlakət törədirlər. Bununla da daha böyük ziyan vurmağa çalışırlar.

Bunlar cəbhəyanı rayonların kənd təsərrüfatına ciddi ziyan vurub, 100 min hektar əkin sahəsinin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsinə mane olub. Eyni zamanda əhalinin içməli suya olan tələbatının ödənilməsində ciddi problemlər yaradıb. Həm əkin, həm də içməli su üçün yeraltı sulardan intensiv istifadə isə təbii resursların tarazlığını pozub. Uzun illər ərzində bu vəziyyətin davam etməsi isə regionda bitki və yaşıllığın məhvinə səbəb olub. Ən pisi də odur ki, bütün



bunlar torpağın bioloji strukturunda bərpası mümkün olmayan proseslərin baş verməsinə, səhralaşmaya, meşə örtüyünün seyrəlməsinə səbəb olub. Ciddi ekoloji gərginliyə gətirib çıxarıb. Bölgədə ciddi ekoloji, bioloji, iqtisadi gərginlik yaranıb. Digər tərəfdən anbar işğal dövründə təmir olunmadığından qəzalı vəziyyətə düşüb.

İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov isə bildirdi ki, su anbarının idarə olunması zamanı ekoloji, o cümlədən, iqlim amillərinin nəzərə alınmaması su səviyyəsinin aşağı düşməsinə, ekoloji risklərin daha da kəskinləşməsinə səbəb olub. Onun bitki və heyvan aləminə mənfi təsir göstərib. Bitki örtüyünün məhv olmasına, balıq ehtiyatlarının azalmasına, quşların təbii yaşayış areallarının itirməsinə, ətrafdakı meşə ərazilərinin qurumasına, eroziya proseslərinin güclənməsinə, səhralaşmaya və ümumilikdə, ekosistemin tarazlığının pozulmasına gətirib çıxarıb.

Ermənistanın təmizlənmədən birbaşa Tərtər çayına axıtdığı məişət tullantıları və sənaye müəssisələrinin çirkab suları isə çayı və Sərsəng Su Anbarını zəhərləyib. Bu gün anbarın suyunda zərərli maddələrin miqdarı normadan dəfələrlə artıqdır. Suyun həddindən artıq kimyəvi zəhərlənməyə məruz qalması ərazidə yaşayan insanlarda dəri-zöhrəvi və mədə-bağırsaq xəstəliklərinin də geniş yayılmasına səbəb olub. Bununla da nəinki insanlığa qarşı, həm də təbiətə qarşı cinayətlər törədilib.

Mahir Zeynalov daha sonra bildirdi ki, 1992-ci ildən Ermənistanın işğalı altında qalan Sərsəng Su Anbarı texniki qurğuların baxımsızlığı nəticəsində qəza vəziyyətindədir. – 30 ildir su anbarında təmir-bərpa işlərinin görülməyib, avadanlıqların istismar müddəti başa çatıb, aşınmaya məruz qalıb, bu isə onun davamlılığının minimuma qədər azaldığını göstərir. Deməli, texnogen qurğuların əksəriyyəti sıradan çıxıb və hazırda təhlükəli bir vəziyyət yaranıb: istənilən vaxt baş verə biləcək təbii hadisə və ya hər hansı bir təxribat bəndin dağılmasına gətirib çıxara bilər. Qəza Azərbaycanın cəbhəyanı 6 rayonunun – Yevlax, Goranboy, Tərtər, Bərdə, Ağdam, Ağcabədi rayonlarının 400 mindən artıq əhalini təhlükə ilə üz-üzə qoyur. Bütün bu faktlar Sərsəng təcavüzünün Ermənistanın Azərbaycan xalqına qarşı təhdid siyasətinin tərkib hissəsi olduğunu, Ermənistanın Sərsəng Su Anbarını Azərbaycana qarşı silah kimi istifadə etdiyini sübuta yetirir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin baş məsləhətçisi Sarvan Ağayev isə bildirdi ki, su anbarının Azərbaycan nəzarətinə keçməsi bir çox ərazilərimiz suvarma suyu ilə təminatında böyük rol oynayacaq. O dedi:

– Sərsəng Su Anbarında toplanan su axıb Suqovuşan su anbarında toplanır. Bu su ilə Tərtər, Ağdərə, Ağdam, Ağcabədi, Yevlax, Bərdə, Goranboy rayonlarının ümumilikdə 95 min hektar əkin sahəsi suvarma suyu ilə təmin olunacaq. Bu da Qarabağın iqtisadiyyatının inkişafına müsbət təsirini göstərəcək.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşları artıq Sərsəng su anbarına nəzarət edir. Su anbarından təkcə suvarma üçün deyil, elektrik enerjisinin alınması üçün də istifadə ediləcək. Hazırda su anbarının üzərində 50 meqavat gücündə su elektrik stansiyası var. Ordakı su elektrik stansiyalarında işğalda olduğu dövrdə təmir-bərpa işləri görülməyib, texniki qurğular baxımsızlığa üzləşib. Yəqin ki, Suqovuşan Su Anbarında gördüyümüz işləri Sərsəng su anbarında da görəcəyik.

Qeyd edək ki, 1976-cı ildə Tərtərçay çayının üzərində Sərsəng Su Anbarı tikilərək istifadəyə verilib. Anbarın ümumi həcmi 565 milyon, faydalı həcmi 500 milyon kubmetrdir. Su anbarının su güzgüsünün sahəsi 1346 hektar, sahil xəttinin uzunluğu isə 50,25 kilometrdir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Xocavəndə bayraq sancan döyüşçü

**Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksələnlər həm də öz adlarını xalqın tarixi yaddaşına həkk ediblər. Onlar Vətən, dövlət və xalq qarşısında öz borclarını sonadək ödəyib qəhrəmanlıq nümunəsi yaradaraq, milyonlarla insanın sevgisini, rəğbətini qazanıblar.**



1995-ci il dekabrın 24-də Gədəbəydə anadan olan, Tovuzun Qovlar şəhərində yaşayan Zülfüqar Bayram oğlu Abbasov kimi könüllü döyüşə yollanan minlərlə Vətən övladı hünər göstərərək, Zəfərə imza atıb.

Vətən müharibəsində Zülfüqarın döyüş yolu Füzulidən başlayıb. Rayonun kəndlərinin azad edilməsində şücaət göstərib. Murov döyüşlərində xüsusilə fərqlənib. O, Xocavəndin işğaldan azad olunan ərazilərinin birinə bayraq sancarkən noyabrın 10-da mənfur düşmənin gülləsinə tuş gələrək şəhid olub.



Döyüşlərdə olarkən Zülfüqarın övladı dünyaya gəlib. Təəssüf ki, Zülfüqar öz övladını görmədən şəhid olub.

**Zülfüqarın döyüş yoldaşı Orxan Mustafayevin söhbətini dinləyək:**

– Şəhidlik hər adama qismət olmur. Müharibədə əsgərlər arasında şəhid olanlardan daha çox döyüşənlər də vardı, az döyüşənlər də. Amma onlara şəhidlik qismət olmadı. Uca məqam–şəhidlik alın yazısıdır. Döyüşlərdə mənim qardaş hesab etdiyim, çox yaxın dostum, az müddətdə hər tikəni böldüyüm döyüşçü yoldaşım Zülfüqar da şəhid oldu. Biz onların şəhid olmazdan öncə necə vuruşduqlarının, cəsarət və inamla necə güllə qabağına getdiklərinin şahidi olmuşuq. Zülfüqar, həqiqətən, qəhrəmancasına döyüşürdü. Hamımızın əvəzindən səngərdə idi.

Murovdağ istiqamətində döyüşə hazırlaşan vaxt xəbər aldıq ki, onun övladı olub. Yanıma gəldi ki, "Mustafayev, oğlum olub, amma icazə vermirlər, gedəmmirəm". Həqiqətən də o vaxt təlimlərdə olduğumuzdan bir döyüşçünün belə evə buraxılması mümkün deyildi. Mühüm tapşırıq verilmişdi.

Biz bir-birimizə çox isti münasibət göstərmişik. Gözümü açırdım ki, Zülfüqar döyüş yoldaşlarımızdan mənə kofe göndərib, mən ona şokolad göndərirdim. Həmin günlərdə gəldi ki, bölükdən bayıra gəl, işim var. Getdim. Qayıtdi ki, qardaşımgil uşağa ad qoymaq istəyirlər, nə ad qoyum, kömək et. Biz o qədər mehriban idik ki, o, bu xahişi məndən edirdi.

Bilirdim ki, Zülfüqar həmişə ibadət edən uşaqların yanına gedir, Allaha bağlı adamdır. Dedim, indi ki, dinimizi sevirsən, Allahını tanıyansan, gəl onun adlarından birini qoyaq. Dedi ki, Orxan, peyğəmbər adları daha çox ürəyimə yatır. Adları sadaladım: İsa, Musa, Yaqub... Davud adında dayandı ki, oldu. Evə zəng vurub tapşırdı ki, oglumun adı Davud olacaq. Cibimdə Azərbaycan bayrağı vardı. Döyüşçü yoldaşım vermişdi. Qola keçirilən naryad (tapşırıq) bayrağı idi. Verdim ki, inşaallah, qayıdanda oğlunun beşiyindən asarsan. Sən Qovlarda, mən Bakıda olacağam. Bayrağı beşikdən asıb şəklini mənə göndərərsən. Razılaşdıq.

Bir dəfə elə oldu ki, bizim postda silahların lüləsi qızıb tutuldu, səngərin o biri hissəsində Zülfüqar tək atışmalı oldu. Mən, Ceyhun və Yaşar Məmmədovlar Zülfüqar üçün darağa güllə doldurub verirdik. Çünki atan silah təkcə onda qalmışdı. Səsləndim ki, Zülfüqar, bayraq yanında? O güllə yağışının altında əlini sinəsinə qoydu ki, bayraq buradadır, beşikdən asacam. Amma bu arzusunu həyata keçirmək ona nəsib olmadı...

Allah Alidə anamıza, həyat yoldaşı Aytən bacımıza səbir versin. Ailə bilir ki, Davudun döyüşçü əmiləri onu heç vaxt unutmayacaq.



**Qardaşı Elmar Abbasov deyir:**

– O könüllü gedən vaxt hamımız dedik ki, bir az gözlə, övladın doğulsun, sonra gedərsən. Dirənib durdu ki, mən gedəcəm. Şəhid olsam, oğlum fəxr edəcək ki, atam torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canını qurban verib. Sonuncu dəfə noyabrın 9-da Zülfüqarla danışanda dedim ki, "ehtiyatlı ol". Dedi: "Burada o keçmir, qardaş".

Hərbi əməliyyatların dayandırıldığı gün–noyabrın 10-da Zülfüqar Xocavənddə şəhid olur. Ailə bir həftə onun öldü-qaldısından xəbərsiz olur. Yalnız noyabrın 17-də şəhidlik xəbəri ailəyə çatanda, həyətdə böyük izdiham toplanıb. Faciəni elliklə qarşılayıblar.

Ana yanıb-yaxılıb: "Gözlə, dedim, övladın dünyaya gəlsin, üzünü gör. Eşitmədi. O bir şeyə qərar verdisə, sözündən dönməzdi"– deyə fəryad edib. Noyabrın 20-də igid şəhidimiz Qovlarda torpağa tapşırılıb.

Döyüş yoldaşları Bərdiyar Süleymanov, Fuad Mehdiyev Zülfüqarın döyüş şücaətlərindən xüsusi məhəbbətlə danışırlar. Deyirlər ki, bir dəfə 4 günlük mühasirədə qaldıq. Zülfüqar tezliklə mühasirədən çıxacağımıza bizi o qədər inandırıb ürəkləndirirdi ki, elə bil, ağsaqqal kişidir. Komandirimiz övladı olduğuna görə Zülfüqara hər dəfə ehtiyatlı davranmasını deyirdi. Amma Zülfüqar qorxub-çəkinmədən Xocavəndin bir neçə kəndinə döyüş bayrağımızı sancıb. Oğlunun bu torpaqlarda daha rahat yaşamağı üçün son dəfə azad edilən kəndə qələbə bayrağını sancarkən şəhid olub.

Son telefon danışığı zamanı Zülfüqar "Vətən uğrunda şəhid olacam" – deyibmiş. İndi Abbasovların qonşuları, qohumları, 25 yaşlı gənc şəhidimizi tanıyan hər kəs onun necə qorxmaz, iradəli olduğundan, yurdsevərliyindən qürurla danışırlar.

Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Zülfüqar Abbasov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Hər şəhidə bir şeir yazan şair

**Elşad Baratın şəhidlərimiz haqqında yazdığı "Ölümsüzlər" kitabı bəzək-düzəkdən uzaq, kövrək şeirlərdən ibarətdir. Oxuduqca insanın ruhu Kərəm kimi alovlanır.**

Kitabı vərəqlədikcə üzünü heç vaxt görmədiyin, səsini duymadığın yüzlərlə oğul üçün ürəyindən sızıltı keçir. Elşadın qələmə aldığı şeirləri sanki o deyil, hansısa şəhid anası deyib, şəhid xanımı dilə gətirib.

**Görüşünə gəlmişəm,**
**Ağlayım, susum səni?**
**Dur, öpüm baş daşından,**
**Bağrıma basım səni.**

Bu misraları təsirlənmədən oxumaq mümkün deyil. Bunlar ithaf deyil, balasını son mənzilə yola salan ananın dilindən deyilmiş son lay-lay kimidir. Hər şeir, şairin ürəyində, kim bilir, necə dərin izlər buraxıb.

**Necədi anan üçün yuxu olmaq,**
**səs olmaq?**
**Necədi Vətən üçün ölüb,**
**müqəddəs olmaq?**

Elşad Barat deyir ki, şəhidlərin həyatını qələmə almaq, onlara ithaf şeirləri yazmaq çox çətin olur. "Şəhid ailəsinin acılarını öz qəlbində hiss edirsən, onun barəsində məlumat toplayarkən o qədər ruhən yaxınlaşırsan ki, onunla birlikdə döyüşürsən, ölürsən. Mən bu şeirləri yazarkən yüz dəfələrlə ölüb-dirildim. Bu mənada, onlar haqqında kitab yazmaq çox çətin oldu. Sarsıdıcı duyğu selinin içindəydim. Şəhidlər haqqında yazmaq üçün hər birinin ailəsi ilə görüşdüm, oxuduqları məktəblərə getdim, ölməzlərin özəl xüsusiyyətlərini öyrəndim, ayrı-ayrılıqda hər birinin həyatı ilə maraqlandım. Döyüş yolu, şəhid olduğu son döyüş barədə məlumat topladım. Kitabımda hər şəhidin şəkli və haqqında ətraflı məlumat, ona həsr etdiyim bir şeir dərc edilib.

"Ölümsüzlər" kitabına Milli Məclisin sədr müavini Adil Əliyev, Xalq şairi, deputat Sabir Rüstəmxanlı və tanınmış şair Ağacəfər Həsənli ön söz yazıblar. Hələlik 1-ci cild çapdan çıxıb. Növbəti cild də tezliklə hazır olacaq. Birinci kitabda 300 şəhid haqqında məlumat və



şeir var. Bütün şəhidlərimiz haqqında yazacağam, heç biri diqqətdən kənarda qalmayacaq".

Şair qəhrəmanlarını o dərəcədə dərindən araşdırır ki, sanki, illərin dostu olub onlarla. Birlikdə böyümüşük, "Dava-dava" oynayıblar Elə olub el-el, oba-oba, kənd-kənd gəzib. 3000 şəhidin hamısı, sanki, Baratın əzizi, doğması, qardaşıdır. Buna görə də "Görmədiyim, lakin birlikdə böyüdüyüm və itirdiyim 3000 şəhid qardaşım var" – deyir.

*İlhamə RƏSULOVA*

# Şəhid övladları Heydər Əliyev Mərkəzində



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Sosial Xidmətlər Agentliyi bir qrup şəhid övladının Heydər Əliyev Mərkəzinə ekskursiyasını təşkil edib.**

Uşaqlar Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və foto arxiv, sənədlər, kitablar, eləcə də müxtəlif eksponatlarla tanış edilib. Şəhidlərimizin xalqımıza əmanəti olan övladları ekskursiya çərçivəsində mərkəzdə Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, tükənməz təbii sərvətlərini əks etdirən sərgi ilə də tanış olublar.

*XQ*

# Nakam sevgi hekayəti

## *Həm də gerçək məhəbbət dastanı*



**Həyat sevgiyə möhtac olsa da, sevinclə yanaşı, kədərlə də naxışlanır. Sevginin xoşbəxt etdiyi də var, bədbəxtlik gətirdiyi də. Kimi onu bir ömür doyunca yaşayır, kimi isə sevgi aləmində nakam yolçuya çevrilir. Belə sevgidən hüznlü xatirələr, şirin xəyallar qalır...**

Sentyabr ayında Qarabağ bölgəsində keçirilmiş lokal xarakterli antiterror tədbirlərində döyüş tapşırığını şərəflə yerinə yetirən Azərbaycan Ordusunun hərbi qulluqçusu Vəli Mustafayev Ağdamda şəhid oldu. Komando bölüyündə xidmət edən 20 yaşlı əsgərin həyatı yarıda qırıldı və o, şəhidlik məqamına yüksələrək yalnız doğulduğu Ağstafa rayonunun Qarahəsənli kəndinin deyil, bütün Azərbaycanın oğlu oldu.

**Şəhidin atası Ceyhun Mustafayev deyir:** "Ürəyimə dammışdı ki, oğlum yaralanıb, amma şəhid olduğunu bilmirdim."

**Anası Könül də qəhərdən danışa bilmir.** Bircə bunu deyir: "Yurdu qoruyan oğul, niyə yurdumu boş qoydun?"

**Vəlinin bacısı Ceyhunə anasını ovundurub, gözünün yaşını silib qardaşından danışır:**

– O, mənim arxa-dayağım idi. Tək qardaşım idi. Hər işdə mənə kömək edir, "bacı nə qədər ki, varam, mən sənin yolunda hər çətinliyi aşaram"– deyirdi. İndi elə bil, qolum-qanadım qırılıb. Tək qaldım. Qardaşım bizim yolumuzu Bakıya Biləcəri qəsəbəsinə saldı. Sevdiyi qız orada yaşayırdı. Biz el adəti ilə elçi getdik. Vəli ilə Arzunu nişanladıq, toyuna hazırlaşırdıq.

Taleyə nə deyim? Biz nə gözləyirdik, nə gördük... Qardaşımın dəfnindən sonra Arzudan belə bir mesaj aldım. "Anana de, gəlinin də gedir oğlunun yanına. Tək qoyan deyiləm onu. Mən ancaq belə qurtula bilərəm"...

...Vəlinin şəhid olduğunu eşidəndən sonra nişanlısı Arzunun fikirləri qarışıb, yaşamağa güc tapmayıb. Özünü hündürmərtəbəli binadan atan gənc qızın cismi yerə, ruhu göylərə uçub. İki sevgilinin ruhu cənnət qapısında qovuşub. Gənclik həyəcanı, çarəsizliyi ilə canına qıyan qızın Vəli ilə bağlı arzuları da torpağa gömülüb. Arzunun nəşi Biləcəridən Ağstafanın Qarahəsənli kənd qəbiristanlığına aparılıb və nişanlısının yanında dəfn edilib. Sevgi, sədaqət rəmzi olan üzüklər isə onlardan ailələrinə gözdağı, nisgilli yadigar qalıb.

**Ceyhunə deyir:**

– Bu üzüyü göz bəbəyim kimi qoruyacağam. Qardaşımın iyini bundan alacağam. Mən bilirəm, qardaşım cənnətdədir. O, Vətənin azadlığı yolunda canını qurban verib. Vəlinin tabutu üzərindəki dövlət bayrağı atama təqdim ediləndə bir şeyi anladım. Mənim əziz, yeganə qardaşım qəzada da həyatını itirə bilərdi. Onda bu itkini yalnız kəndimiz, qohum-əqrabamız duya biləcəkdi. İndi isə Vəlini bütün Azərbaycan xalqı tanıyır. Çünki o, Vətən yolunda canını qurban verib. Anam ən çox ona görə yanır ki, qardaşım nakam getdi. Özündən sonra bir övladı olsaydı, yenə təskinlik idi.

Mən bir şəhid bacısı olaraq bundan sonrakı həyatımı qardaşımın xoş xatirələri və hünərindən doğan öyünclə yaşayacağam. O ki qaldı qardaşımın nakam nişanlısına... o gərək belə etməyəydi. Vəli ona görə şəhid oldu ki, xalqımız dinc yaşasın. Vəliyə dəyən düşmən gülləsi taleyini onunla ortaqlaşdırmış gəlinimizə də dəydi. Vəli Vətən sevgisinə, nişanlısı da ona olan məhəbbətinə sadiq qaldı. Arzu həyatını başqa yöndə – Vəlisiz görə bilmədi. Bu nakam sevgi hekayəti yeni bir gerçək məhəbbət dastanı oldu.

*Z.BAYRAM*
*XQ*

## Zəfər poeziyası

# Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün

**Darıxmışdı yurd yeri çəkmənin izlərinə,**
**Həsrət çəkən, yol çəkən sevdalı gözlərinə...**
**"Vətən sağ olsun" deyən dilinə darıxmışdı,**
**Torpağa sığal çəkən əlinə darıxmışdı...**

**Səbri daş əritsə də dözmüşdü sona kimi...**
**30 il yol gözləyən taqətsiz ana kimi**
**Diz çöküb ayağını qucmağa darıxmışdı,**
**Sevincdən qanad açıb uçmağa darıxmışdı...**

**Darıxmışdı ağaclar, darıxmışdı çiçəklər,**
**Bayrağını öpməyə təşnə idi küləklər...**
**Murovun zirvəsinə yağan qar darıxmışdı,**
**Minarələr, Türbələr, Məzarlar darıxmışdı...**

**Gözünü aç, Qarabağ, yuxu deyil gördüyün,**
**30 illik ümiddir, yaddaşına hördüyün.**
**Bir işıq topasıdır uzaqdan bəri gəlir!**
**Qəhrəman övladların qayıdır geri, gəlir!**



**Gəlir yurdun sahibi, gəlir evin yiyəsi,**
**Gəlir, məğrur millətin qalib əsgəri gəlir!**

*Elçin MIRZƏBƏYLİ*

XQ gənc istedadları təqdim edir

# 15 yaşlı şair – publisistin yetkin aləmi

## Sevindiyin yaradıcılıq uğurları hamını sevindirir





**İstedadı və çalışqanlığı ilə yaşından yetkin görünən, necə deyərlər, yeniyetməliyi vaxtından əvvəl arxada qoyan gənc yazar Sevindik Nəsiboğlu dünən anası ilə redaksiyamıza qonaq gəlmişdi. Parlaq istedadı ilə hamını heyran qoyan 15 yaşlı bu qələm sahibi yaradıcı heyətlə görüş zamanı müəllifi olduğu şeir və publisistika kitablarından bir neçəsini redaksiyamıza hədiyyə etdi.**

Görüşdə XQ-nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov hələ 10-cu sinif şagirdi olsa da, artıq 2 ildir ki, Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuş Sevindiklə ilk dəfə bir müddət öncə Azərbaycan Mətbuat Şurasında görüşdə tanış olduğunu bildirdi. O, gənc yazarın uğurlu yaradıcılıq yolunda ilk inamlı addımlarından danışaraq ona daha böyük nailiyyətlər arzuladı.

Sonra Sevindik Nəsiboğlu ilə ümumi tanışlıqdan öyrəndik ki, köçkünlük həyatı yaşayan Xocavənd rayonunun Muğanlı kənd orta məktəbinin vunderkind (möcüzə uşaq) şagirdi artıq bir neçə kitabın müəllifidir. Bunlar müəllifin 10 yaşında çap olunan və AMEA-nın Ədəbiyyat İnstitutunda görkəmli alimlərin iştirakı ilə təqdim edilən "Dünyamsan, Azərbaycan", eləcə də "Hərdən uçmaq istəyirəm", "Könüllərə yol gəzirəm", "Ulu Naxçıvanım", "Möhtəşəm Zəfərin nişanəsi" və "Zəfəri nurlandıran Nurlan" kitablarıdır. Hazırda daha bir kitabı – "Dirçələn xarıbülbül" nəşr olunması üçün Mədəniyyət Nazirliyinə təqdim edilib.

Sevindiyin yaradıcılıq nümunələri ilə ötəri tanışlıqdan onun şeir, esse, povest və poemalarında ifadə edilən istedad və qabiliyyəti aşkar boy göstərir. Gənc müəllifin yaradıcılıq güzgüsündə cilvələnən "Cavid", "Çin olmayan yuxu", "Gündüz", "Qayıt", "Kor məhəbbət" kimi poemaları hədsiz maraq, həm də yaşının azlığı baxımından heyrət doğurur.

Redaksiyamızın əməkdaşları öz çıxışlarında yetərincə təvazökar və ünsiyyətcil olduğunu müşahidə etdikləri gənc həmkarları Sevindik Nəsiboğlunun ilk qələm təcrübələrinin böyük ümid verdiyini vurğuladılar. Fərəhlə qeyd olundu ki, belə istedadlı gəncliyin uğurları hər kəsi sevindirir. Bu ağıllı və yurdsevər oğlanın çoxsaylı məqalələri, araşdırma yazıları, oçerk və şeirləri müxtəlif media orqanlarında dərc edilib. O, nüfuzlu ictimai və yaradıcılıq birliklərinin "Gənc istedad", "Ən yaxşı gənc yazar", "İlin şagirdi" diplomlarına layiq görülüb. İstedadlı yazar "Kredo" qəzeti redaksiya heyətinin üzvü, bir neçə informasiya portalının müxbiridir. İki ay öncə "Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı onu "Ulu öndər Heydər Əliyev siyasətinin təbliğində səmərəli fəaliyyətinə görə" medalı ilə təltif edib.

Əməkdaşlarımızın suallarına səmimi, yetkin cavablar verən Sevindik Nəsiboğlu fəxrlə bildirdi ki, 44 günlük Vətən müharibəsindən sonra şəhidlərimizin xatirəsinə çoxlu yazılar həsr edib. Onun 700-dən artıq səhifəsi olan irihəcmli "Möhtəşəm Zəfərin nişanəsi" kitabında maraqlı oçerkləri ilə bərabər, azad elektron ensiklopediya – Vikipediya üçün hazırladığı 365 şəhid haqqında materiallara da yer verilib. Göründüyü kimi, 15 yaşlı yazarın özünəməxsus publisistik düşüncəsi yetərli söz ehtiyatı, ümidverici özünüifadə tərzi var.

Yeni Azərbaycanın yetirməsi olan gənc istedad gələcəkdə hüquqşünas olmağı arzulayır. Bədii yaradıcılığı isə qarşısıalınmaz mənəvi ehtiyacı, vətəndaşlıq borcu sayır. Belə bir hobbi insanın könlünün istəyi ilə məşğul olduğu və böyük zövq aldığı fəaliyyətidir. Görüşümüzün nəticəsi olaraq gəldiyimiz nəticə budur ki, hansı sahədə çalışacağından asılı olmayaraq, Sevindik Nəsiboğlu öz istedad və qabiliyyəti ilə həmkarlarından fərqlənəcək, daha da məhsuldarlaşacaq və Azərbaycanımızın tərəqqisinə gərəkli töhfələr verəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Mədəniyyət və yaradıcı sənayelər"in birgə hədəfləri






**Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Mədəniyyət və Yaradıcı Sənayelər Forumu" başa çatıb. Üç gün davam edən forumda müvafiq dövlət qurumlarının rəhbərləri və yaradıcı sektor təmsilçilərinin iştirakı ilə ayrı-ayrı sahələr üzrə yaradıcı sənayelərə dair panel sessiyalar keçirilib.**

Forum çərçivəsində "Türk dünyası animasiya şəbəkəsinin qurulması", "Türk dünyasının yumor sahəsi üzrə əməkdaşlıq perspektivləri" və digər mövzularda dəyirmi masalar da təşkil olunub. Həmçinin "Yaradıcı müzakirələr" ("Creative Talks") layihəsi də təşkil edilib. Tədbirlər ərəfəsində "Mədəniyyət sahəsində innovasiyalar: qabaqcıl texnologiyalar, süni zəka, oyun texnologiyaları" adlı panel sessiya təşkil edilib. Panelin moderatoru İtaliyanın "CultTech akselerator" layihəsinin nümayəndəsi Marino Pasquale olub. Paneldə startapçıların mədəniyyət sahəsinə kütləvi girişinin təmin edilməsi, yeni iqtisadi modellərin inkişaf etdirilməsi, insanların etmək istədikləri yeniliklər barədə fikirlərini və ideyalarını bölüşmələri, süni intellekt və texnologiyanın gücü ilə insanların həyatının asanlaşdırılması və yeni texnologiya imkanlarından səmərəli istifadə mövzusunda müzakirələr təşkil olunub.




"Rəqəmsal dövrdə rəqabətqabiliyyətli audiovizual sahənin formalaşdırılması" mövzusunda animasiya sahəsində görülən işlər, blogerlərin bilik və təcrübələrini dünya auditoriyası ilə bölüşmək, qısametrajlı film layihələrinin inkişafına dair maarifləndirici proqramların yaradılması, müxtəlif tədbirlərin təşkili, sosial şəbəkələr vasitəsilə yaradıcı məhsulların və xidmətlərin satışını təşkil etmək və digər mövzularda fikir mübadiləsi aparılıb. Panel sessiyada iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Forumun son günündə isə sonuncu panel sessiyası gerçəkləşib. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Nazlı Əhmədovanın moderatorluğu ilə keçirilən panel "Mədəniyyət və yaradıcı sənayelər Milli Prioritet kimi" mövzusuna həsr olunub.Tədbirdə Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda mədəni yaradıcı sənayenin inkişaf etdirilməsi, onun ÜDM-də payının artırılması kimi məsələlər də əksini tapıb. Strategiyada nəzərdə tutulan hədəflərə çatmaq üçün nazirlikdə yaradıcı sənayelər üzrə işçi qrupu formalaşdırılıb.

Qrupun dəstəklənməsi üçün digər dövlət qurumları tərəfindən nümayəndələr müəyyən edilib. İl ərzində 5 yerli təhsil proqramına start verilib və bu məqsədlə edu.creative.az informasiya resursu yaradılıb. Hazırda yaradıcı təhsil üzrə təqaüd proqramı və yerli sənaye subyektlərinin elektron kataloqu hazırlanır. Həyata keçirilən tədbirlər əsasən yeni yaradıcı məhsulların hazırlanmasına yönəlib. Başlıca məqsəd ölkədə sənaye zəncirinin reallaşmasına şərait yaratmaq, yaradıcı sənaye məhsullarının regional və beynəlxalq müstəviyə çıxmasına nail olmaqdan ibarətdir. Forumda həmçinin yaradıcı sənayedə əqli mülkiyyətin rolu, bu sahənin idarə edilməsi barədə fikirlər səsləndirilib. Qeyd olunub ki, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyətinə başlaması, sektorun ixrac potensialının artırılması, kreativ məhsulların ölkə xaricinə çıxarılması üçün lazımi kömək göstərilir. Bu prosesdə davamlı inkişaf üçün dövlət və özəl əməkdaşlığı əhəmiyyətlidir. Panel sessiyada iştirakçıları maraqlandıran suallar cavablandırılıb, səsləndirilən təkliflər barədə fikir mübadiləsi aparılıb.

"Mədəniyyət və Yaradıcı Sənayelər Forumu" çərçivəsində "Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi" (MY EXPO 2023) açılıb. Forum müddətində nümayiş olunan sərgidə yaradıcı sənaye nümayəndələrinin iştirakı ilə kreativ məhsullar təqdim olunub. Sərgi kino, animasiya, musiqi, oyun texnologiyaları, dəb, dizayn kimi yaradıcı sahələri, həmçinin yaradıcı məkan və regionları da bir araya gətirib.

"Yaradıcı həftə" çərçivəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə 10 yaradıcı sahə üzrə Quba, Bakı, Sumqayıt, Lənkəran, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Şamaxı və Şuşada ümumilikdə 100 tədbirin keçirilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, "Mədəniyyət və Yaradıcı Sənayelər Forumu" dünən başa çatıb.

***Fidan SALMANOVA***
***XQ***

# Kür üstündə nur şəhəri



**Mingəçevir Şəhər İcra Hakimiyyətinin tədbirlər planına müvafiq olaraq, yaşayış massivlərində aparılan əsaslı təmir işlərinə ictimai baxış keçirilib.**

Şəhərin 127-ci məhəlləsindəki 34, 36, 38, 40 nömrəli yaşayış binalarında, həyətlərdə və digər ərazilərdə genişmiqyaslı yenidənqurma aparılır. İctimai baxış 34 nömrəli binada aparılan işlərlə tanışlıqla başladı. Burada kanalizasiya xəttinin yenilənməsi sona çatıb, ərazidə oturacaqlar qoyulub, səki daşları səliqəyə salınıb. Binanın giriş hissələrində təmir işləri ilə yanaşı, plastik şüşəbəndlər, seyf qapıları qoyulub, divarlar suvanaraq rənglənib. Sakinlərin arzu və istəyinə uyğun olaraq, binaların fasad hissələri diqqəti cəlb edən tərtibata uyğunlaşdırılıb.



Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov işlərin operativ və keyfiyyətlə görülməsini ciddi nəzarətdə saxlayır. Elə həmin yaşayış məhəlləsindəki 36, 38, 40 nömrəli binalarda işlər səqilə ilə aparılsa da, qarşıya bəzi problemlər çıxdığından icra başçısı su-kanal idarəsinin, kommunal xidmət idarələrinin rəhbərlərinə əlavə göstərişlər verdi. Bu göstərişlər əsasən ağacların suvarılması üçün su xətlərinin nizamlanması, ağacların budanması və s. ilə bağlı idi.

Xətai küçəsindəki 9 və 11 nömrəli yaşayış binalarına baxış zamanı məlum oldu ki, bu binalarda müəyyən işlər görülsə də, kanalizasiya sistemi tam bərpa olunmayıb. Yəni, binanın zirzəmisi ilə ümumi kanalizasiya xətti arasında birləşmə bərpa olunmayıb. Bununla da bağlı təcili tapşırıq verildi.

Aydın Məmmədov küçəsindəki 7a nömrəli binanın qarşısında yaradılmış idman meydançası, uşaq əyləncə sistemi diqqəti cəlb edirdi. Bura, sözün əsl mənasında, sakinlərin istirahəti üçün gözəl məkana çevrilib. Baxış zamanı sakinlər şəhər rəhbərinə yaxınlaşaraq aparılan abadlıq-quruculuq işlərinə görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər. İcra Hakimiyyətinin başçısı ölkə idarəetməsində sosial yönümlü siyasətə prioritet verildiyini bildirdi və sakinləri əmin etdi ki, şəhərdə bu qəbildən olan işlər ardıcıl davam etdiriləcək. Buna görə də hamılıqla abadlıq işlərində fəallıq göstərmək və şəhərin tərəqqisinə töhfələr vermək əzmində olmalıyıq.

Qeyd edək ki, hazırda Mingəçevirin N.Nərimanov, C.Əliyev, Y.Mənsurov, Naxçıvan və bir sıra digər küçələrində də bərpa-quruculuq işləri uğurla həyata keçirilməkdədir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**Mingəçevir**

## Sənət xəbərləri

### Azərbaycan filminin Moskva mükafatları




Rusiya Federasiyasının paytaxtında postsovet ölkələrinin iştirakı ilə V Beynəlxalq "Moskva premyerası" kinofestivalı keçirilib. Sənət yarışmasında azərbaycanlı rejissor Asif Rüstəmovun "Mərmər soyuğu" filmi "Ən yaxşı kişi rolu"na görə və Qran-pri mükafatlarına layiq görülüb. Ekran əsəri, eyni zamanda, kino tənqidçilərinin "Qızıl kirpi" baş mükafatını qazanıb.

"Mərmər soyuğu" filmi "Azərbaycanfilm" kinostudiyası, İctimai Televiziya (İTV), Bakı Media Mərkəzi və Fransanın "Arizona Films" şirkətinin birgə layihəsidir. Filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və Rulof Jan Minnebo (Hollandiya), quruluşçu rəssamları Oqtay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirov, prodüseri Fariz Əhmədov, Orman Əliyev və Guillaume de Seil, kreativ prodüseri İradə Bağırzadədir.

### Tbilisidə soydaşlarımızın bayram sərgisi



Tbilisi Dövlət Universitetində düzənlənən bayram sərgisində Azərbaycan guşəsi iştirakçıların böyük marağına səbəb olub.

Soydaşlarımızın "Alyans" Gənclər Mərkəzinin təşkilatçılığı ilə açılan guşədə xalqımızın milli mədəniyyət nümunələri, Borçalı xalçaları, milli musiqi alətləri, qədim alətlər, paxlava, şəkərbura nümayiş etdirilib.

Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov ölkələrimiz arasındakı dostluq əlaqələrindən bəhs edərək bildirib ki, bu cür tədbirlərin təşkili Gürcüstandakı milli azlıqların öz mədəniyyətlərini nümayiş etdirməsi baxımından önəmlidir. "Alyans"ın İdarə heyətinin sədri Rəna Hüseynova universitetə mərkəzin tələbələrinin əl işini hədiyyə edib.

Sonda milli azlıqların nümayəndələri milli rəqsləri ifa ediblər.

### Yarım əsr Sumqayıt səhnəsində



Respublikanın Əməkdar artisti Növrəstə Həşimova 50 ildir ki, Sumqayıt Dövlət Dram Teatrının aparıcı səhnə ustasıdır.

Növrəstə xanım kiçik yaşlarından dram və musiqi dərnəklərinə gedib, xalq teatrlarında maraqlı obrazlar yaradıb. Sonra o vaxtkı Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram-kino aktyorluğu fakültəsini bitirib. 1973-cü ildən Sumqayıt teatrında çalışır.

Yubiley tədbirində qeyd olunub ki, Sumqayıt teatrında işlədiyi dövrdə N.Həşimova milli dramaturqların əsərlərində yaratdığı obrazlarla yanaşı, əcnəbi müəlliflərin pyeslərinin tamaşalarında yaddaqalan obrazlar yaradıb. Onun qəhrəmanları öz təbiiliyi, xarakterik cizgiləri ilə seçilir. Növrəstə Həşimovanın musiqini və rəqsi bilməyi onun oyun tərzinə dinamika verir.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Ərdoğan Avropanın “ən məşhurları” sırasında



**Amerikanın “Politico” nəşri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı “2024-cü ildə Avropanın ən nüfuzlu adamları” sırasına daxil edib. Nəşr gələn il “Avropanın siyasi həyatını formalaşdıracaq” 28 nəfərin siyahısını dərc edib. Məlumatı “Anadolu” yayıb.**

Siyahıdakı bütün şəxslər üç kateqoriyaya bölünür. Türkiyə lideri “işləyənlər” kateqoriyasında beşinci yeri tutub. Nəşrin saytındakı profildə qeyd olunur ki, Ərdoğan uzun müddətdir, özünü “güclü geosiyasi lider” kimi göstərməyə çalışır. Nəşr siyasətçinin 2016-cı ildə uğursuz çevriliş cəhdindən sağ çıxdığını xatırladıb. Materiala görə, Ərdoğan “son vaxtlar iki böyük geosiyasi böhrandan ən çox faydalanıb: Rusiya–Ukrayna müharibəsi və İsraillə HƏMAS arasındakı münaqişə.

Nəşr göstərir ki, Ərdoğan həm Kremllə, həm də Ukrayna prezidentinin administrasiyası ilə əlaqə saxlayan azsaylı siyasətçilərdən biridir. Məqalədə qeyd olunur ki, Türkiyə Prezidenti Rusiya Federasiyası ilə Ukrayna arasında silahlı münaqişənin sülh yolu ilə həllində vasitəçilik rolunu öz üzərinə götürüb.

Türkiyə dövlət başçısının Qara Dəniz Taxıl Təşəbbüsünün müəllifi olduğu və taxıl sazişinin müddətinin uzadılması üçün mühüm səylər göstərdiyi də xüsusilə vurğulanıb.

Türkiyə Prezidentinin İsraillə HƏMAS arasındakı münaqişə fonunda vasitəçilik missiyasını üzərinə götürdüyü də qeyd edilir. Nəşr yazır ki, Ərdoğan İsrail Prezidenti İsaak Hersoq, Fələstin Prezidenti Mahmud Abbas, eləcə də Misir, Livan və Qətər liderləri ilə təmaslar yolu ilə vəziyyətin deeskalasiyasına nail olmaq istəyib.

“Politico” qeyd edir ki, vəziyyətə uyğun olaraq, Ərdoğan Fələstin tərəfdarı kimi mövqe nümayiş etdirib, İsraili “işğalçı” adlandırıb və “Qəzza qətliamının əsl günahkarı Qərbdir” deyib.

Nəşr, eyni zamanda, yazır ki, Ərdoğan “özünü Avropa İttifaqının orbitinə qaytarmağa çalışıb” və Türkiyənin Aİ-yə üzvlük prosesini “durğun vəziyyətdən” çıxarmaq üçün İsveçin NATO-ya daxil olması məsələsindən “istifadə edib”. Vurğulanır ki, Türkiyənin Aİ-yə üzvlük məsələsi hazırda masada olmasa da, “Aİ rəsmiləri Ərdoğanla əməkdaşlığı genişləndirmək yollarını axtarırlar”. Bu, “Türkiyə liderinin növbəti geosiyasi qələbəsi” kimi qiymətləndirilir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# SSRİ-yə “məzar qazan”ın da məzar növbəsi çatdı

*ABŞ-ın “diplomatiya akademiki” Henri Kissincer 100 yaşında vəfat edib*

**Amerikalı dövlət xadimi, diplomat, beynəlxalq münasibətlər sahəsində məşhur ekspert, Misirin İsraili tanımasını təmin edən, “Təhlükəsiz irrasionallıq” doktrinasının müəllifi, ABŞ və SSRİ arasındakı nüvə mübarizəsinin təməlini atan siyasət professoru Henri Kissincer həm də Sovet İttifaqını süquta aparan ssenarinin müəlliflərindən biri kimi tanınırdı.**

1923-cü il mayın 27-də Almaniyanın Bavariya əyalətinin Fyurt şəhərində dindar yəhudi ailəsində anadan olan Henri Alfred Kissincer 1938-ci ildə Birləşmiş Ştatlara mühacirət edib.

ABŞ-nin Luiziana ştatında məskunlaşan Kissincer burada onun kimi Almaniyadan mühacirət etmiş Fris Kremerlə tanış olur. Hərbi tarixçi Teodor Draper yazır ki, gənc Henrinin siyasi və intellektual cəhətdən formalaşmasında Kremerin müstəsna xidmətləri olub. Orduda xidmət edən, Harvard Universitetinin məzunu olan, beynəlxalq münasibətlərə dair yazdığı kitablar H.Kissinceri ABŞ-nin siyasi dairələrində məşhurlaşdırıb, respublikaçı prezidentlərin iki administrasiyasında işləməsinə yol açıb.

Amma Henri Kissincerin gələcək siyasi bioqrafiyasında Nyu-York ştatının qubernatoru Nelson Rokfeller əhəmiyyətli rol oynayıb. Kissincer Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizədliyini irəli sürən (1960, 1964, 1968) Rokfellerin məsləhətçisi qismində çalışıb. Tarixçilər Nelson Rokfelləri Kissincerin “ikinci patronu” adlandırırlar.

1968-ci ilin sonunda ABŞ-nin yeni prezidenti Riçard Nikson Henri Kissinceri özünün milli məsələlər üzrə müşaviri postuna təyin edir. Bu dövrdən etibarən Kissincerin Ağ evin dəhlizləri ilə siyasi karyerasının “uğurlu marafonu” başlayır. Prezidentin köməkçisi vəzifəsində çalışanda da, o, Rokfellerlə əlaqəni kəsməmiş, zəngin ailəyə məxsus “Rokfeller Qardaşları Fondu”nun idarə heyətinin üzvü, “Chase Manhattan Bank”ın məsləhətçisi kimi qalırdı.

* * *

Ümumiyyətlə, H.Kissincer İkinci Dünya müharibəsindən sonra ABŞ-nin ən bacarıqlı və nüfuzlu dövlət katibi hesab olunur. O, prezident Nikson istefa verdikdən sonra Ağ evin yeni sahibi Cerald Fordun administrasiyasında eyni zamanda həm müşavir, həm də ABŞ-nin Dövlət katibi kimi çalışıb. Məhz Kissincerin diplomatik qabiliyyəti və uzaqgörənliyi sayəsində Birləşmiş Ştatlar xarici siyasətdə uğurlu addımlar atıb. 39 yaşında konfliktologiya üzrə professor dərəcəsinə layiq görülmüş, siyasi dairələrdə “diplomatiya akademiki” ləqəbini qazanmış Henri Kissincerin 1971-ci ildə apardığı gizli danışıqlar nəticəsində Prezident Niksonun Pekinə tarixi səfəri təşkil edilib və ABŞ və Çin arasında münasibətlər normallaşıb. H.Kissincer Sovet İttigfaqı ilə də münasibətlərin normallaşdırılmasının tərəfdarı idi. Onun SSRİ-nin o dönəmdəki rəhbərliyi ilə apardığı dialoqlar iki supergüc arasında münasibətlərin yumşalmasına səbəb oldu və ən önəmlisi, nüvə silahlarına nəzarətə dair ikitərəfli sazişlər imzalandı.

Bundan başqa, H.Kissincerin Şimali Vyetnamla uzun sürən sülh danışıqlarının təşkilində və aparılmasında şəxsi xidməti danılmazdır. ABŞ ordusunun



Cənubi Vyetnamdan çıxarılması ilə sonuclanan səylərinə görə, Henri Kissincer 1973-cü ildə Nobel Sülh Mükafatına layiq görülüb.

* * *

Onun Ağ evdə sonuncu vəzifəsi Prezidenti Barak Obamanın Xarici siyasət məsələləri üzrə baş müşaviri postu oldu.

Sonralar adı SSRİ-nin çökdürülməsi layihəsinin “ssenari müəlliflərindən” biri kimi hallanan diplomat həm də Corcstaun Beynəlxalq Münasibətlər İnstitutunda tələbələrə siyasi mühazirələr oxuyurdu.

Sonda onu da qeyd edək ki, məhz Henri Kissincerin respublikaçı Prezident Corc Buşa təsiri səbəbindən ABŞ-nin Azərbaycana birbaşa hərbi yardımını qadağan edən “Azadlığa Dəstək Aktı”na 907-ci düzəliş 2002-ci ilin yanvarında qüvvədən salınıb.

Henri Kissincer noyabrın 29-da axşam saatlarında Konnektikut ştatındakı evində dünyasını dəyişib.

***İ.HƏSƏNQALA***
***XQ***

HƏYATIN İÇİNDƏN

# Qoca və qadın...

*Bir də qocalacağını ağlına gətirməyən gənclər*

**Növbəti dayanacaqda avtobusa 70 yaşlarında bir qoca kişi mindi. Kartla ödənişdən sonra yıxıla biləcəyindən ehtiyat etdiyi üçün oturacaqlardan tuta-tuta salonun ortasına tərəf getdi.**

Boş yer yox idi. Bir neçə cavan və orta yaşlı sərnişin isə ayaq üstə durmuşdu. Qoca bu marşrutla hər gün işə gedib-gəlir. Son vaxtlar ona və başqa yaşlı insanlara nəqliyyatda az-az hallarda oturmağa yer təklif edirlər.

Qoca bu dəfə də ayaq üstə durmalı olacaqdı. Amma bir qədər nasaz idi, ürəyindən keçdi ki, kaş, qarşıdakı dayanacaqlarda sərnişinlərdən düşən olaydı...

O, belə hallarda hər dəfə “zəmanə çox dəyişib, axı biz vaxtilə bunların ata-babalarına yer verərdik”, – deyə ürəyində cavanları qınayardı, amma giley-güzarını heç vaxt dilə gətirməz və bunu büruzə verməzdi. Bəzən hətta qəlbində gənclərə haqq qazandırmağa çalışaraq düşünərdi: “Bəlkə də tələbədirlər, imtahana gedirlər, ola bilər ki, gecəni yatmayıb dərslərini hazırlayıblar”.

Bu arada 30–35 yaşlarında bir gənc qadın yerindən qalxıb qocaya yaxınlaşdı və təkidlə onun yerində oturmasını xahiş etdi.

Kişi qəti etiraz etdi:

– Qızım, sən nə danışırsan, mən xanımların yerində otura bilmərəm.

– Yox, ağsaqqal, sizdən çox xahiş edirəm. Mütləq əyləşin.

Qoca hiss etdi ki, onun bu təklifdən imtina etməsi gənc xanımın xətrinə dəyəcək. Əyləşdi və dərindən köks ötürdü. Avtobusdakılar bu səhnəni gözücü müşahidə etsələr də, heç kim qımıldanmadı.

Gözünü bahalı mobil telefonuna zilləyən yeniyetmə oğlan isə yanındakı xanım sərnişinin öz yerini qocaya verməsinin fərqində deyildi. O, telefona qoşulmuş qulaqcıqlar vasitəsilə hansısa yeni yumoristik səhnəciyin “dadını çıxarırdı”.

İki-üç dayanacaqdan sonra qocaya yer verən xanım düşməyə hazırlaşaraq avtobusun “stop” düyməsini basdı. Avtobus dayanacağa çataçatda idi.




Bu an gənc xanım qocaya yaxınlaşıb onun qulağına pıçıldadı:

– Əmi, siz mənim atama çox oxşayırsınız.

– Atanız sağdır?

Xanım kövrək səslə cavab verdi:

–Yox, bir həftə əvvəl dünyasını dəyişib...

– Allah rəhmət eləsin!

– Ölənlərinizə rəhmət!

Xanım avtobusdan düşdü və iti addımlara irəli gedərək kütlənin içində gözdən itdi.

Qoca ətrafa göz gəzdirdi və bu an hiss etdi ki, avtobusdakılar onun üçün yenidən yadlaşıblar.

***M.HACIXANLI***
***XQ***

İDMAN

# Qalib gimnastlar kim olacaq?



**Milli Gimnastika Arenasının köməkçi zalı kişi idman gimnastikası üzrə 28-ci Azərbaycan çempionatı və açıq Bakı birinciliyi, qadın idman gimnastikası üzrə isə 7-ci Azərbaycan çempionatı və Bakı birinciliyinin qaliblərini müəyyən etmək üçün əsl mübarizə meydanına çevrilib.**

“Ocaq Sport Klubu”, Bakı Gimnastika Məktəbi, Sumqayıt Olimpiya İdman Kompleksi, “Zirə Mədəniyyət Mərkəzi”, Balakəni təmsil edən 60 idmançı 2 gün ərzində bacarıqlarını nümayiş etdirəcəklər.

Qadın idman gimnastikası üzrə Azərbaycan yığmasının baş məşqçisi Olqa Barkalava jurnalistlərə müsahibəsində bildirdi ki, yarışların nəticələrinə əsasən, gələn il üçün milli komandanın, eləcə də 2024-cü ildə Avropa çempionatında iştirak edəcək komandanın tərkibi müəyyən ediləcək. Baş məşqçi Paris Yay Olimpiya Oyunlarına hazırlıq barədə də danışdı:

– Gimnastlarımızı gələn il bir çox yarışlar gözləyir. Əsas hədəf Olimpiya Oyunlarına vəsiqə qazanmaqdır. Gimnastlarımız dünya kuboku yarışında iştirak edəcəklər. Eyni zamanda, Avropa çempionatına hazırlaşırıq. Orada həm yeniyetmələr, həm də böyüklər iştirak edəcək. Biz bütün yarışlarda iştirak edəcəyik. Qadınlardan ibarət Azərbaycan yığmasının üzvü Nazənin Teymurovanın həm kubok mərhələləri, həm də Avropa çempionatında Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün real şansı var.

Kişi idman gimnastikası üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Ruslan İrqaşev Azərbaycan çempionatı və müxtəlif yaş qrupları üzrə keçirilən birincilikdə gimnastların öz bacarıqlarından maksimum istifadə etməsi üçün hər bir şəraitin yaradıldığını vurğuladı. O qeyd etdi ki, qazanılan nəticələrə əsasən, beynəlxalq yarışlarda iştirak edəcək gimnastlar müəyyən ediləcək.

– Gimnastlarımız arasında çox istedadlı idmançılar var. Yarışlarda onların çıxışı göstərir ki, öz üzərlərində çalışırlar. Gələn il gimnastlarımız dünya kuboku yarışında çıxış edəcəklər. Həmin turnirdə Nikita Simonovdan Olimpiadaya lisenziya gözləyirik. Eyni zamanda, İvan Tixonov, Rəsul Əhmədov da yaxşı nəticələr göstərməyə qadirdirlər. Gələn il, həmçinin Avropa çempionatı keçiriləcək ki, bu yarış da mühüm əhəmiyyət daşıyır. Onu da qeyd edim ki, gənc gimnastımız Rəsul Əhmədov da gələn ildən böyüklər arasında çıxış edəcək.

Millinin üzvü Rəsul Əhmədov yarışa yaxşı hazırlaşdığını, potensialından maksimum istifadə edəcəyini bildirdi. 2024-cü ilin aprelində Avropa çempionatında 6 alət üzrə gücünü sınayacağını bildirən gimnast yaxşı formada olduğunu dedi:



– Çempionatda həm fərdi yarışlarda, həm də çoxnövçülükdə qüvvəmi sınayacağam. Yaxşı nəticə göstərəcəyimə inanıram. Həmçinin gələn il idman gimnastikası üzrə dünya kubokları keçiriləcək, orada iştirak edəcəyəm.

Yarış iştirakçılarından Nikita Simonov da Azərbaycan çempionatında mükafatçılar sırasında yer almaq üçün hərtərəfli hazırlığa malik olduğunu dedi. Bu il Bakıda keçirilən dünya kubokunda halqalarla yarışlarda qızıl medal qazanan gimnastımız yaxşı formada qalmaq üçün fasiləsiz məşqlər etdiyini bildirdi:

–Əsas hədəf Paris Yay Olimpiya Oyunlarına lisenziya əldə etməkdir. İstirahət etməyə vaxt yoxdur. Ciddi səylərlə hazırlığımızı davam etdiririk. Bu il dünya çempionatında Olimpiadaya lisenziya qazana bilərdim. Qələbəyə yaxın olsam da, təəssüf ki, alınmadı. Qarşıda bizi bir sıra yarışlar gözləyir. Çalışacağam ki, potensialımdan maksimum istifadə edərək əsas hədəfə çatım.

Qeyd edək ki, qaliblər yaş qruplarına müvafiq olaraq fərdi çoxnövçülük proqramında, eləcə də kişilər və qadınlar arasında ayrı-ayrı alətlər üzrə (kişilər: sərbəst hərəkətlər, dəstəli at, halqalar, dayaqlı tullanma, paralel qollar, turnik; qadınlar: dayaqlı tullanma, müxtəlif hündürlüklü qollar, gimnastika tiri, sərbəst hərəkətlər) üzrə müəyyənləşəcəklər.

***Leyla QURBANOVA***
***XQ***


## Azərbaycan Turizm və Menecment Universiteti

### Kafedra müdiri vəzifəsini tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

Nəqliyyat, informasiya, kommunikasiya texnologiyaları və təbiət elmləri kafedrası üzrə – 1 yer

Elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) sənədlər saat 10:00-dan 17:00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir. Sənədlər hr@atmu.edu.az mail ünvanı vasitəsi ilə elektron qaydada da qəbul edilir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə).
3. Tərcümeyi-hal.
4. Şəxsiyyət vəsiqəsinin surəti.
5. Profilə uyğun olaraq ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiqlənmiş surətləri.
6. Elmi və elmi-metodiki işlərin siyahısı.
7. Kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Telefon- 564-42-33 (daxili - 115).

Ünvan- AZ1072. Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103 nömrəli otaq.

**Qeyd -** namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 262 (30378) 1 dekabr 2023-cü il, cümə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

*Hörmətli abunəçilər!*
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Kosmos

# Yeni planetlər ailəsi



***Yerdən, təxminən, 100 işıq ili uzaqlıqda yerləşən 6 planetdən ibarət yeni ulduz sistemi aşkar edilib. Bunun üçün astronomlar iki fərqli peykdən istifadə ediblər. Bu kəşf elm adamlarına planetlərin əmələ gəlməsinin sirlərini açmağa kömək edə bilər.***

Alimlərin dediyinə görə, 6 ekzoplanet günəşə bənzər bir parlaq ulduzun ətrafında fırlanır. Onlar yerdən daha böyük, lakin Neptundan daha kiçik olan planetlərdir.

Bu planet “ailə”sinin qeyri-adiliyi odur ki, sistem 1 milyard il əvvəl formalaşandan bəri onda çox az şey dəyişib. Bu sahədə araşdırmalar planetlərin təkamülünə və bizim qalaktikamızın yaranma prosesinə aydınlıq gətirə bilər.

***Ayan SƏMƏDQIZI,***
***tələbə-jurnalist***

İdman xəbərləri

# Dünya çempionatının ikinci günündə 5 medal

**Bakıda hərbçilər arasında güləş üzrə 36-cı dünya çempionatında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**



“Sərhədçi” İdman Mərkəzində təşkil olunan yarışın ikinci günündə güləşçilərimiz 2 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıblar. Qızıl medalları yığmamızın aktivinə sərbəst güləşçimiz Orxan Abbasov (79 kq) və qadın güləşi üzrə Ruzanna Məmmədova (59 kq) yazdırıblar. Ceyhun Allahverdiyev (61 kq) gümüş, Gültəkin Şirinova (53 kq) və Fərid Cabbarov (86 kq) bürünc medala sahib olublar.

Qeyd edək ki, turnirin ilk günündə sərbəst güləşçilərimiz Əli Rəhimzadə (65 kq), Hacı Əliyev (70 kq), Turan Bayramov (74 kq) və İbrahim Yusubov (92 kq) qalib adına layiq görülüblər. Qadın güləşçilərimiz Elnurə Məmmədova (50 kq) 2-ci, Nərgiz Səmədova (55 kq) 3-cü yerləri tutublar. Bununla da, komandamızın mundialda qazandığı medalların sayı 11-ə çatıb.

Yarış dekabrın 3-də başa çatacaq.

# Millimiz 6 pillə irəliləyib



**FIFA reytinqində ötən ayla müqayisədə 6 pillə irəliləyən Azərbaycan millisi 114-cü mövqedə yer alıb.**

Komandamızın aktivində 1174.22 xal var. Liderliyini qoruyan Argentina millisinin 1855,20 xalı var. Fransa (1845,44) ikinci, İngiltərə (1800.05) isə üçüncü pillədə qərarlaşıblar.

# İlin “idman yaxşıları”

**Gənclər və İdman Nazirliyi “2023-cü ilin ən yaxşıları”nın seçiminə başlayıb.**




3 mərhələdən ibarət olacaq səsvermənin birinci mərhələsində Olimpiya idman növləri üzrə federasiyalar nominasiyalar üzrə öz namizədlərini təqdim ediblər. İkinci mərhələ sosial media vasitəsilə izləyicilər arasında aparılır.

Üçüncü mərhələnin qalibləri isə nazirlikdə yaradılmış münsiflər komissiyanın rəyi də nəzərə alınmaqla elan ediləcək və Qala mərasimində mükafatlandırılacaqlar.

Seçim prosesində namizədlər federasiyalardan 50 faiz, izləyicilərdən 30 faiz, xüsusi münsiflər komissiyasından isə 20 faiz səs alacaqlar.

***Leyla SABİRQIZI***
***XQ***

Konsert

# Naxçıvan Dövlət Filarmoniyası Trabzon səhnəsində

**Naxçıvan Dövlət Filarmoniyası Azərbaycanın Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunun təşkilatçılığı ilə Trabzonda konsert proqramı ilə çıxış edib.**



Muxtar respublikanın Mədəniyyət Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konsert başlamazdan əvvəl çıxış edən ölkəmizin Qars şəhərindəki Baş konsulu Nuru Quliyev Ulu öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı müstəsna xidmətlərindən, Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən, Türkiyə–Azərbaycan qardaşlığı və birliyindən danışıb.

Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin müşayiəti ilə təqdim edilən musiqi çələngində Müslüm Maqomayevin “Azərbaycan”, Aytən Alpmanın “Məmləkətim” mahnıları, Fikrət Əmirovun “Min bir gecə” baletindən fraqmentlər, Tofiq Quliyevin “Sənə də qalmaz”, Üzeyir Hacıbəylinin “Çırpınırdı Qara dəniz”, Eldar Mansurovun “Sabaha ilhamla”, digər musiqi və rəqs nömrələri yer alıb. Əsərləri Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva və solist İlkin Abdullayev ifa ediblər.

Konsert proqramı Cavanşir Quliyevin “Azərbaycan–Türkiyə” əsərinin səsləndirilməsi ilə sona çatıb.

***XQ***

Ekologiya



# Özbəkistanda fövqəladə su rejimi

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev su ehtiyatlarından səmərəli istifadə tədbirləri ilə bağlı keçirilən müşavirədə deyib ki, ölkə suya qənaət etmək üçün fövqəladə iş rejiminə keçir.**

Prezidentin sözlərinə görə, Özbəkistanda daxili mənbələr suya olan tələbatın cəmi 20 faizini təmin edir. İqlim dəyişikliyi və transsərhəd çayların idarə edilməsində çətinliklər səbəbindən 2030-cu ilədək respublikada illik su çatışmazlığının 15 milyard kubmetrə çatacağı proqnozlaşdırılır.

Su istehlakının 90 faizi kənd təsərrüfatının payına düşür ki, onların da xeyli hissəsi səmərəsiz istifadə olunur. Gillə örtülmüş suvarma sistemlərində illik su itkisi 14 milyard kubmetr və ya ümumi istehlakın 36 faizini təşkil edir. Habelə 175 min hektar əkin sahəsi kifayət qədər suvarılmır ki, bu da iqtisadiyyata 5 milyard dollar zərər vurur.

2024-cü ildə görüləcək işlər arasında kanalların və arxların betonlanması, suya qənaət edən texnologiyaların tətbiqi və suyun çatdırılması xərclərini azaltması prioritet təşkil edəcək.

***XQ***

Hava



# Ölkədə gün yağmursuz keçəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-12°, gündüz 13-16° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman, şərq rayonlarında az çiskin olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 12-17° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

# Çayın 1-i qaydadır... 3-ü cana faydadır

**Planetin ən məşhur içkisi olan çayın 6 müxtəlif növü var: qara, yaşıl, ağ, sarı, ulun və puer. Bu növlər hamısı eyni çay bitkisindən alınır, sadəcə, istehsal forması fərqlidir. Alimlər gündə 3 stəkan çay içməyin faydalarını araşdırıb və təsdiqləyiblər:**



**Xərçəngə qarşı təsirlidir:** Çayın qoruyucu təsiri daha çox ağız boşluğu, süd vəzisi, uşaqlıq və qaraciyər xərçəngində özünü göstərir. Çünki çay bitkisində antioksidantlar çoxdur. Hüceyrələri sərbəst radikallardan təmizləyir.

**Beyni sağlam saxlayır:** L-teanin amin turşusu yaşıl çayda çox olduğundan beynə faydalıdır. Çay diqqəti, yaddaşı yaxşılaşdırır, düşüncəni artırır, gümrahlıq verir. Onda olan katexinlər isə beyin sinir və neyronlarını toksik zülaldan qoruyur.

**İmmunitetə dəstəkdir:** Qara və yaşıl çayda olan teaflavin və qallat polifenolları immun sistemini aktivləşdirir. Tərkibindəki kofein, teobromin və teofillin iltihabi prosesləri aradan qaldırır.

**Ürək-damar sağlamlığına kömək edir:** Arterial təzyiqi normada saxlamaq, şəkər və xolesterinin artmasının qarşısını almaq üçün gündə 2 stəkan qara və ya yaşıl çay içmək kifayətdir.

Müntəzəm olaraq, yaşıl çay içmək isə infarkt və insult riskini azaldır.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4747
SİFARİŞ 3120
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00